**Azərbaycan Dövlət Pedaqoji Universitetinin**

**Şamaxı filialının**

**050107 – İbtidai sinif müəllimliyi ixtisası üzrə**

---

**Proqram akkreditasiya qiymətləndirilməsinə dair Akkreditasiya Komissiyasının**

# YEKUN HESABATI

**2024-cü il**

## AKKREDİTASİYA KOMİSSİYASININ TƏRKİBİ

**Sədr:**

1. **Nigar Eldar qızı Zeynalova** – Azərbaycan Dillər Universiteti, Pedaqogika kafedrasının müdiri və inklüziv təhsil mərkəzinin rəhbəri, p.ü.f.d., dosent

**Üzvlər:**

1. **Samirə Asif qızı Hacıyeva** – ADA Universiteti, Təhsilin idarə olunması, öyrənmə və öyrətmə magistr proqramında baş müəllim, t.ü.f.d
2. **Turan İsa qızı Zəkəriyəyeva** – XXI Əsr Beynəlxalq Təhsil və İnnovasiya Mərkəzinin akademik direktoru
3. **Nərmin Rafət qızı Əzizova** – Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası, Sabah Mərkəzinin koordinatoru və Sosial elmlər kafedrasının baş müəllimi, doktorant
4. **Pərvinə Mahir qızı Qədimova** – Bakı Avropa Liseyi, ibtidai sinif müəllimi, doktorant

## Mündəricat

### I. Giriş

1.Qiymətləndirilən təhsil proqramına dair məlumatlar…………………………………….........4


### II. Təhsil proqramının akkreditasiya qiymətləndirilmə nəticələri

2.Qiymətləndirmənin icmalı…………………………………………………………...….......6

Təhsil proqramı üzrə təhsilalanların qəbulu………………………………………….….........6

Tanınmış kvalifikasiyanın aid olduğu təhsil səviyyəsinin düzgün müəyyən edilməsi…...........8

Təhsil proqramı üzrə tədrisin təşkili……………………………………………......................9

Təhsil proqramı üzrə tətbiq olunan tədris metodları və üsulları…………………….................18

Tədris proqramı üzrə istifadə olunan təlim və tədris resursları.............................................22

Tədris proqramı üzrə tələb olunan təhsil infrastrukturu və maddi-texniki baza………..........28

Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi……..31

Təhsil proqramına cəlb olunan professor-müəllim heyəti………........................................35

Təhsil proqramı üzrə tələbəyönümlü tədris…………………………………………................43

Təhsil proqramının monitorinqi……………………………………………………...................48

Təhsil proqramının davamlı təkmilləşdirilməsi və yenilənməsi…………...........................50

Təhsil proqramı üzrə təhsilalanlara karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi.....51

Komissiyanın meyarlar üzrə təhlili…………………………………………………..................53

Komissiyanın dövlət standartlarının yerinə yetirilməsinə dair qeydləri………………….........63

Təhsil proqramının akkreditasiyası üzrə Komissiyanın yekun rəyi……………………….........63

## I. Giriş

## 1. Qiymətləndirilən təhsil müəssisəsinə dair məlumatlar

| | |
|---|---|
| Təhsil müəssisəsinin adı | Azərbaycan Dövlət Pedaqoji Universiteti Publik Hüquqi Şəxsinin Şamaxı filialı |
| Təhsil səviyyəsi | Bakalavr |
| Təhsil Proqramının şifri və adı | 050107- İbtidai sinif müəllimliyi |
| Sonuncu proqram akkreditasiyasına dair şəhadətnamənin verilmə tarixi və müddəti | Filial Təhsil Nazirliyinin 13 yanvar 2020-ci il tarixli, F-22 nömrəli əmri ilə dövlət ali təhsil müəssisəsi kimi 2016/2017, 2017/2018, 2018/2019, 2019/2020 və 2020/2021-ci tədris illəri üçün institsional akkreditasiyadan keçmişdir. Proqram akkreditasiyası isə filialda ilk dəfə keçirilir. |
| Təhsil müəssisəsinin lisenziyasına dair məlumatlar (dövlət təhsil müəssisələri istisna olmaqla) | AR Nazirlər Kabinetinin 2020-ci il 3 noyabr tarixli 434 nömrəli Qərarının 6.3. bəndinə əsasən “Lisenziyalar və icazələr haqqında” sözləri “Publik hüquqi şəxslər” sözləri ilə əvəz edilmişdir. AR NK-nin 2022-ci il 12 avqust tarixli 302 nömrəli Qərarına müvafiq olaraq ADPU AR Elm və Təhsil Nazirıiyinin tabeliyində publik hüquqi şəxs statusuna malik olan ADPU-ya çevrilmə yolu ilə yenidən təşkil edilmişdir. Şamaxı filialı da universitetin bir qolu olaraq PHŞ statusuna malik olduğu üçün lisenziya almaq hüququna malik deyildir. |
| Təhsil müəssisəsinin rəhbəri | Filologiya üzrə fəlsəfə doktoru,dosent Yusifova Tünzalə Vəli qızı |
| Fakültənin adı | Pedaqoji fakültə |
| Təhsil proqramının təhkim olunduğu kafedra(lar) sayı | 4 |
| Təhsil proqramı üzrə təhsilalan kontingenti | **Təhsilalan sayı**<br>Bakalavriat: 184 nəfər<br>D/S: 5 nəfər<br>Ö/Ə: 179 nəfər |
| Təhsil proqramı üzrə hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı (manatla) | Bakalavriat:<br>D/S: 1710 manat<br>Ö/Ə: 1800 manat |

| | |
|---|---|
| Təhsil proqramı üzrə təlim və tədris prosesinə cəlb edilmiş ştatdakı professor-müəllim (və ya pedaqoji) heyətin sayı | 24 nəfər |
| Təhsil proqramı üzrə əvəzçilik və saathesabı yolu ilə işləyənlərin sayı | Əvəzçilik: 10 nəfər<br>Saathesabı: 3 nəfər |
| Təhsil müəssisənin elektron ünvanı və əlaqə telefonu | adpu.samaxi.filiali@adpu.edu.az<br>adpu.shamaxifiliali@mail.ru<br>+994202696124 |
| Təhsil müəssisənin hüquqi ünvanı | Şamaxı rayonu, Şəhriyar qəsəbəsi |

## II. Təhsil müəssisəsinin akkreditasiya qiymətləndirilmə nəticələri

### 2. Qiymətləndirmənin icmalı

Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (bundan sonra – Agentlik) F-181 nömrəli 14.11.2022-ci il tarixli əmri ilə təsdiqlənmiş metodologiyaya əsaslanaraq qiymətləndirilmişdir. Qiymətləndirmənin məqsədi təhsil müəssisələrinin davamlı olaraq təkmilləşdirilməsini, daxili keyfiyyət təminatının qiymətləndirilməsini təmin etmək və ictimaiyyəti təhsilin keyfiyyəti barədə məlumatlandırmaqdır. ADPU-nun Şamaxı filialının "050107 – İbtidai sinif müəllimliyi" təhsil proqramının akkreditasiyasına dair Akkreditasiya Komissiyası Agentlik tərəfindən təsdiqlənmiş ekspert seçimi proseduruna uyğun seçilmişdir. Akkreditasiya komissiyası 15.04.2024-cü il tarixində müəssisəyə səfər etmişdir. Komissiyanın istiqamətlər üzrə yekun qiymətləndirmə nəticələri aşağıdakı kimidir:

### 1. TƏHSİL PROQRAMI ÜZRƏ TƏHSİLALANLARIN QƏBULU

#### 1.1. Təhsil proqramı üzrə tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı müvafiq ixtisaslar üzrə təhsil proqramlarında və təhsil standartlarında qeyd olunan tələblərin ödənilməsi vəziyyəti

ADPU-nun Şamaxı Filialında həyata keçirilmiş ibtidai sinif müəllimliyi ixtisasının proqram akkreditasiyası nəticəsində müəyyən olunmuşdu ki, Filialda təhsil proqramı üzrə tələbə qəbulunun proqnoz layihəsi hər tədris ili üçün bir il öncədən sentyabr-oktyabr aylarında Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin müvafiq məktubuna cavab olaraq hazırlanır. Filial direktoru, fakültə dekanı və kafedra rəhbərləri ilə müsahibələrdə qeyd olundu ki, nazirlikdən müvafiq məktub daxil olduqdan sonra Elmi Şurada məsələ müzakirə olunur, layihə proqnozunun hazırlanması qərara alınır. Bununla əlaqədar, kafedralarda daxili müzakirələr aparılır, kafedra müdirləri ilə rəhbərliyin müzakirələri təşkil olunur və proqnoz layihəsi hazırlanır. Bu zaman infrastruktur, tədris resursları, əmək bazarının tələbləri mümkün qədər nəzərə alınır. Layihə oktyabr ayında Filial tərəfindən ATM rəhbərliyinə müvafiq məktubla göndərilir. Təhlil dövrü üzrə müvafiq məktublar və Elmi Şuranın protokollarından çıxarışların surətləri (25 oktyabr 2022, №58-01-08/18; 03 oktyabr 2023, №06/1/7-80; 17 sentyabr 2021, protokol №01; 12 sentyabr 2022, Protokol №01; 13 sentyabr 2023, protokol №01) komissiyaya təqdim olundu. Müzakirələrin aparılması və təkliflərin verilməsi isə şifahi həyata keçirilib, rəsmiləşdirilmiş sənədlər təqdim olunmadı. Aşağıdakı cədvəldə tədris illərinə müvafiq olaraq İbtidai sinif müəllimliyi proqramı üzrə plan yerləri, faktiki qəbul və boş qalan yerlərin sayı əks olunmuşdur.

Cədvəl 1.1. Son 5 (beş) il müddətində proqram üzrə tələbə qəbulu haqqında məlumat

| Tədris ili | Plan yeri | Ümumi qəbul | Boş qalan y |
|---|---|---|---|
| 2018/2019 | 25 | 25 | - |
| 2019/2020 | 40 | 39 | 1 |
| 2020/2021 | 50 | 48 | 2 |
| 2021/2022 | 50 | 50 | - |
| 2022/2023 | 50 | 50 | - |
| **Cəmi:** | **215** | **212** | **3** |

## 1.2. Təhsil proqramı üzrə ATM-də əmək bazarının tələblərinə uyğun olaraq tələbə qəbulu sifarişlərinin optimal müəyyən edilməsi vəziyyəti

Filiala səfər zamanı direktor və Keyfiyyətin Təminatı Şöbəsinin rəhbəri ilə müsahibələr eyni zamanda təqdim olunmuş sorğu hesabatlarından aydın oldu ki, Filial rəhbərliyi tərəfind region üzrə ümumi təhsil müəssisələri ilə bu istiqamətdə işlər aparılır, ixtisas üzrə lazımi pedaq və metodiki səriştələrə malik müəllim ehtiyacı araşdırılır. Proqram üzrə təhsil alan tələbələ pedaqoji təcrübə keçdikləri ümumi təhsil müəssisələrindən də rəylər alınır (müvafiq sor nümunələri və onların hesabatları komissiyaya təqdim olundu).

İllər üzrə tələbə qəbulunun vəziyyətinə baxdıqda Filial üzrə ibtidai sinif müəllimliyi ixtisasına ödənişli əsaslarla təhsil alan tələbələrlə yanaşı, dövlət sifarişi əsasında təhsil alan tələbələrin də qəbul olunduğu müşahidə edildi.

Cədvəl 1.2. Təhsil proqramı üzrə ATM-də əmək bazarının tələblərinə uyğun olaraq tələbə qəbulu sifarişlərinin optimal müəyyən edilməsi vəziyyəti

| Tədris ili | Plan yeri | Ümumi qəbul | Dövlət sifarişi əsasında | Ödənişli əsaslarla |
|---|---|---|---|---|
| 2018/2019 | 25 | 25 | 3 | 22 |
| 2019/2020 | 40 | 39 | 3 | 36 |
| 2020/2021 | 50 | 48 | 2 | 46 |
| 2021/2022 | 50 | 50 | 2 | 48 |
| 2022/2023 | 50 | 50 | 2 | 48 |
| **Cəmi:** | **215** | **212** | **12** | **200** |

## 1.3. Təhsil proqramı üzrə tələbə qəbulu sifarişlərin formalaşmasında işəgötürənlərin iştirakı vəziyyəti

Əmək bazarının və işəgötürənlərin tələblərinin daha təfsilatlı öyrənilməsi məqsədi ilə Filialın Keyfiyyətin Təminatı Şöbəsi tərəfindən region üzrə ümumi təhsil müəssisələrinin rəhbərləri ilə sorğular aparılmış, nəticələr təhlil edilmişdir (sorğuların və təhlillərin aparılmasını təsdiq edən sənədlər şöbə tərəfindən komissiyaya təqdim edilmişdir). Filialda region üzrə ümumi təhsil müəssisələri ilə əməkdaşlıq edilir, məzunların müəllimlərin işə qəbulu üzrə müsabiqə prosesində iştirakı və işlə təminatı izlənilir. Filialın Elmi Şurasının iclaslarında mövzu ilə əlaqədar müzakirələr aparılır, qərarlar (Filialın tanıtım tədbirlərinin keçirilməsi və s. 29 mart 2023, protokol №7) qəbul edilir. Elmi Şuranın iclaslarında əmək bazarının nümayəndələrinin iştirakı haqda müvafiq protokollarda məlumat əks olunmayıb (17 sentyabr 2021, protokol №01; 12 sentyabr 2022, Protokol №01; 13 sentyabr 2023, protokol №01).

20.12.2022-ci il tarixində Elm və Təhsil Nazirliyinin struktur bölmə rəhbərləri və ali təhsil müəssisələrinin rəhbərlərinin iştirakı ilə müəllimlərin işə qəbulu üzrə müsabiqənin nəticəsi ilə bağlı təhlillərin müzakirəsinə dair keçirilən görüşdə müsabiqənin test imtahanında iştirak edən namizədlərin məzun olduqları ali təhsil müəssisələrinə görə fənlər üzrə statistik məlumatları təqdim olunmuş və aidiyyatı üzrə məktubla (12.01.2023-cü il tarixli, 3-29/2-127/2023 nömrəli) Filiala göndərilmişdir. Müzakirələrin davam etdirilməsi məqsədi ilə professor-müəllim heyəti, dekan və kafedra müdirləri və Nazirliyin məsul şəxslərinin iştirakı ilə 30.03.2023-cü il tarixində ADPU-da (filiallar ilə birlikdə) görüş keçirilmişdir.

## 2. TƏHSİL PROQRAMLARI ÜZRƏ ƏVVƏLKİ KVALİFİKASİYALARIN TANINMASI

### 2.1. Tanınmış kvalifikasiyanın aid olduğu təhsil səviyyəsinin düzgün müəyyən edilməsi

Proqram akkreditasiyası prosesində müəyyənləşdirilmişdir ki, Filialda ibtidai sinif müəllimliyi proqramı üzrə təhsil Azərbaycan Respublikasının “Təhsil haqqında Qanunu”, Nazirlər Kabinetinin 2 yanvar 1997-ci il tarixli, 1 nömrəli “Ali təhsilin bakalavr pilləsi üçün təhsil sənədlərinin nümumələri haqqında” qərarı, bu qərara müvafiq olaraq təhsil nazirinin 15 iyul 1997-ci il tarixli 476 nömrəli əmri, Nazirlər Kabinetinin 29 aprel 2010-cu il tarixli 82 nömrəli qərarı rəhbər tutularaq həyata keçirilir.

Filial üzrə ali təhsilin bakalavr pilləsini tamamlayan tələbələr üçün təhsil haqqında dövlət sənədləri Azərbaycan Dövlət Pedaqoji Universiteti tərəfindən təqdim olunur və müvafiq struktur bölmələrinin (ümumi işlər üzrə prorektorluq, tədris departamenti, mühasibatlıq, tələbələrin qeydiyyatı və dövlət nümunəli sənədlərlə iş şöbəsi) iştirakı ilə aktlaşdırılır.

### 2.2. Tanınmış kvalifikasiya üzrə əldə olunmuş təlimin (tamamlanmış kreditlərin) həcminin düzgün müəyyən edilməsi

Filiala səfər zamanı komissiya üzvləri tərəfindən müvafiq sənədlərə baxış keçirildikdən sonra tanınmış kvalifikasiya üzrə əldə olunmuş təlimin, tamamlanmış kreditlərin həcminin dövlət standartının tələbinə uyğun olduğu müəyyən edilmişdir.

İbtidai sinif müəllimliyi ixtisasının tədris planlarında nəzərdə tutulan kreditlərin həcmi Azərbaycan Respublikası Təhsil Nazirliyinin 21.08.2020-ci il tarixli 381 saylı qərarı ilə təsdiq olunmuş İbtidai sinif müəllimliyi ixtisasının təhsil proqramı əsasında ADPU-nun təsdiq etdiyi 18 sentyabr 2020-ci il tarixli Tədris planı əsasında müəyyən edilir. Normativ tədris müddətində tədris planında göstərilən fənlər üzrə tələbənin yaranmış akademik borcları növbəti tədris illərində aradan qaldırılır, fənlərin prekvizitliyi gözlənilməklə, sonda pedaqoji təcrübə və ya pedaqoji internaturadan keçir.

Filialda tələbələrin tədris müddətində bir təhsil müəssisəsindən digərinə və ya təhsil müəssisəsi daxilində bir təhsil proqramından digərinə köçürülməsi Nazirlər Kabinetinin və Təhsil Nazirliyinin Kollegiyasının müvafiq əmr və qaydaları ilə (21 yanvar 2011-ci il tarixli 9 nömrəli qərar, 24 iyul 2017-ci il tarixli 212 nömrəli əmr, 15 noyabr 2017-ci il tarixli 5/2 nömrəli qərar) tənzimlənir. Bu halda onun təhsil aldığı müddətdə digər təhsil müəssisəsində və ya digər təhsil proqramında tədris olunmuş fənlərə (toplanılmış kreditlərə) dair akademik arayış (akademik transkript) təqdim olunur.

Filialda son beş tədris ili ərzində qeydə alınmış müvafiq köçürmələri (iki belə hal) və onların düzgünlüyünü təsdiq edən sənədlər komissiyaya təqdim olundu.

### 2.3. Tanınmış kvalifikasiyaya dair sənədin autentik (həqiqi) olması

Filialda diplomlar və onların əlavələri YDA-nı uğurla başa vuran məzunların sayına uyğun olaraq ADPU-nun müvafiq struktur bölməsi tərəfindən Filialın Pedaqogika fakültəsinin dekanına aktla (seriya və nömrələri göstərilməklə) illər üzrə təqdim edilir. Hər tədris ili üçün müvafiq aktların surətləri akkreditasiya komissiyasına təqdim olundu. Diplom və əlavələr qanunauyğun olaraq imzalanıb möhürləndikdən sonra Filial daxilində "Diplom qeydiyyatı" kitabına seriya və nömrələri ilə qeyd edilir, tələbə tərəfindən təhvil alındığı zaman diplomu alan tələbənin ad, soyad və ata adı, təhvil verildiyi tarix və imza ilə təsdiq olunur. Diplom qeydiyyatı kitabının illər üzrə müvafiq səhifələrinin surəti komissiyaya təqdim edildi.

Hesabat dövrünü əhatə edən 2018/2019-2022/2023-cü tədris illəri üzrə bakalavr ali peşə-ixtisas dərəcəsi və ali təhsil haqqında diplom verilməsi barədə Pedaqoji fakültə dekanının təqdimatı əsasında Filial direktorunun müvafiq əmrləri (24.07.2019, əmr 02/77; 03.06.2020, əmr 02/48; 05.08.2021, əmr 04/12; 25.07.2022, əmr 04/17; 25.07.2023, əmr 06/1/2-70) ilə ADPU-nun müvafiq əmrlərinin icrası həyata keçirilmişdir.

## 3. TƏHSİL PROQRAMI ÜZRƏ TƏDRİSİN TƏŞKİLİ

### 3.1. Təhsil proqramı üzrə tədris planlarının kredit sisteminin tələblərinə uyğun tərtib edilmə vəziyyəti

Mövcud vəziyyətin dəyərləndirilməsi məqsədilə filial direktoru, direktor müavinləri və kafedra müdirləri ilə keçirilən müsahibələr zamanı ADPU-nun Şamaxı filialında təlim və tədris prosesinin ADPU tərəfindən göndərilən sənədlər əsasında təşkil olunması bildirildi.

Filialda tədris AR NK-nın 24 dekabr 2013-cü il tarixli 348 nömrəli əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın tələblərinə uyğun olaraq kredit sistemi əsasında təşkil olunur.

ADPU-nun Şamaxı filialında ixtisas üzrə tədris ali ixtisas təhsilinin dövlət standartlarına, ali baza təhsil proqramlarına və 2010-cu il 24 iyun tarixli, 117 nömrəli qərarı ilə təsdiq edilmiş "Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili" Qaydalarının tələbləri gözlənilməklə tərtib edilmiş tədris planları əsasında həyata keçirilir.

Hesabat dövründə İbtidai sinif müəllimliyi ixtisası üzrə 2015, 2019 və 2020-ci illərdə təsdiq olunmuş tədris planlarından istifadə edilmişdir. Tədris planlarında ümumi kreditin həcmi (240 kredit) hər semestr üzrə 30 kredit olmaqla paylanmışdır. Tədris planlarında prerekvizit, seçmə fənlər ümumi kreditin 30%-ni aşmamaqla tərtib edilmişdir.

Təqdim olunan 2015, 2019, 2020-ci illərdə təsdiq olunmuş İbtidai sinif müəllimliyi təhsil proqramı üzrə tədris planında göstəricilər normaya uyğundur.

Cədvəl 3.1. Təhsil proqramı üzrə tədris planlarının kredit sisteminin tələblərinə uyğun tərtib edilmə vəziyyəti

| **İllər** | **Ümumi kredit sayı** | **Seçmə fənlər üzrə kredit sayı** | **Ümumi kredit sayının seçmə fən üzrə kredit sayına uyğunluğu (faizlə)** |
|---|---|---|---|
| 2015-ci il | 240 | 21 | 8,75 % |
| 2019-cu il | 240 | 20 | 8,33 % |
| 2020-ci il | 240 | 44 | 18,33 % |

### 3.2. Təhsil proqramı üzrə ixtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks etdirən tədris qrafikinin mövcudluğu vəziyyəti

Təhsil proqramı üzrə "İbtidai sinif müəllimliyi" ixtisasının tədris planında göstərilmiş fənlər tədris illəri və semestrlər üzrə bölgünü əks etdirən tədris qrafikləri (Forma 2) mövcuddur. Tədris qrafikinin əlçatanlığını təmin etmək məqsədilə sənədlər filialın rəsmi saytında (https://shamakhi-adpu.az/t%c9%99dris-qrafikl%c9%99ri/) yerləşdirilmişdir.

İxtisas üzrə tədris qrafikində fənnin kodu, fənnin adı, kreditin sayı, prerekvizit (özündən öncə tədrisi zəruri olan fənlərin şifri), korekvizit (tədrisi paralel nəzərdə tutulan), fənnin tədrisi üçün nəzərdə tutulan semestr (payız və ya yaz) adları qeyd olunmuşdur.

### 3.3. Təhsil proqramı üzrə tədris planında məcburi və seçmə fənlərin bölgüsünün aparılması vəziyyəti

Ali təhsil müəssisəsində ixtisasın tədrisi 18.09.2020-ci il tarixli Azərbaycan Dövlət Pedaqoji Universitetinin təsdiq olunmuş tədris planına uyğun olaraq aparılır. 2015, 2019 və 2020-ci illərdə təsdiq olunmuş tədris planlarında 4 illik təhsil üzrə həm humanitar, həm də ixtisas fənləri üzrə təqdim olunmuş məcburi və seçmə fənlərin bölgüsü eynidir. İxtisas fənləri üzrə məcburi fənlər 124 kredit, seçmə fənlər 38 kredit, humanitar fənlər üzrə məcburi fənlər 24 kredit, seçmə fənlər 6 kredit təqdim olunmuşdur.

Seçmə fənlərin adları Azərbaycan Dövlət Pedaqoji Universiteti tərəfindən təqdim olunsa da, kafedra müdirləri tərəfindən müəyyən dəyişiklik edilmişdir. Təklifə əsasən “Təhsilin fəlsəfəsi” fənninin tədrisinin 3-cü kursda olması qərara alınmışdır.

### 3.4. Təhsil proqramı üzrə tədris planında ümumi və ixtisas fənləri arasında balansın saxlanılması vəziyyəti

ATM-də təhsil proqramları əsasında tərtib olunmuş tədris planlarında ümumi və ixtisas fənləri bloku arasında balans qorunmuşdur. Belə ki, təqdim olunmuş sxemdə 4 illik təhsil üzrə ümumi fənlərə, ixtisas fənlərinə, tədris planında ADPU tərəfindən təklif olunan fənlərə, pedaqoji internaturaya ayrılmış kreditlərin həcmilə yanaşı, ixtisas üzrə ümumi kreditlərin həcmi də təqdim olunmuşdur:

Şəkil 3.4.İxtisas üzrə kreditin paylanması vəziyyəti




**3.5. Təhsil proqramı üzrə fənlərin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi, uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, nəzarət edilməsi və qiymətləndirilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti**

İbtidai sinif müəllimliyi proqramı üzrə fənn üzrə təlim nəticələri düzgün tərtib edilməmişdir. Belə ki, bəzi fənlər üzrə yazılan təlim nəticələri ya yarımçıq tərtib edilmiş, ya da məzmunu tam əhatə etməmişdir. Sillabuslardakı uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, təlim nəticələrinin düzgün tərtib edilməsinə nəzarət edilməsi və qiymətləndirilməsi prosesi Keyfiyyət təminatı şöbəsi tərəfindən icra olunur. Lakin dərsdinləmələr və sillabusların təhlili zamanı bu prosesin (nəzarət mexanizminin) qənaətbəxş olmadığı müəyyən edilmişdir.

**3.6. Təhsil proqramı üzrə fənlərin təlim nəticələrinin fənn sillabuslarında öz əksini tapması və buna nəzarət mexanizmlərinin mövcudluğu vəziyyəti**

Təhsil proqramı üzrə fənlərin təlim nəticələri fənn sillabuslarında öz əksini tapsa da, yenilənməsinə ehtiyac var. Fəndaxili hər bölmə üzrə təlim nəticələri qeyd olunmamışdır. Keyfiyyətə nəzarət şöbəsi tərəfindən mütəmadi olaraq yoxlamalar keçirilmişdir. Lakin bu yoxlamalar öncədən müəyyənləşdirilmiş meyarlar əsasında aparılmadığından nəticə səmərəli olmamışdır.

**3.7. Təhsil proqramı üzrə tədris planında semestrlərdə nəzərdə tutulmuş fənlərin sayının və həftəlik dərs yükünün tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verməsi vəziyyəti**

Təhsil proqramı üzrə tədris planında semestrlərdə nəzərdə tutulmuş fənlərin sayının və həftəlik dərs yükünün tələbənin dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verməsi vəziyyəti qənaətbəxşdir. Semestr boyu Təhsil proqramı üzrə auditoriya saatı 330 saat, həftəlik auditoriya saatı 22 saat təşkil edir. Bu da tələbələrin dərsdənkənar fəaliyyətinə kifayət qədər vaxt ayrılmasına imkan yaradır.

### 3.8. Təhsil proqramı üzrə tələbələrin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən fərdi tədris planının mövcudluğu vəziyyəti

Təhsil proqramı üzrə tələbələrin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən fərdi tədris planının mövcudluğu vəziyyəti qənaətbəxşdir. Filialda dekan, tyutor və tələbələrlə görüş zamanı müəyyən olunmuşdur ki, tədris qrafiki əsasında tələbələrin fərdi tədris planı hazırlanır. Tələbənin fərdi tədris planında sonradan dəyişiklik edilmir, yalnız tədris ilinin I yarısında (payız semestri) akademik borcu yaranmış tələbələr qış tətilinin ilk həftəsində II yarımil (yaz semestri) üçün fərdi tədris planında düzəliş etmək imkanına malikdirlər. Hər tədris ili üzrə tələbənin fərdi tədris planı tərtib edilərkən bura, ilk növbədə, əvvəlki ildən akademik borcu qalan fənlər daxil edilir. Akademik borcu qalan tələbələrə həmin fəndən kredit qazanmaları üçün şərait yaradılır. Fakültə dekanı tədris ilinin başlanğıcına qədər fərdi tədris planlarını təsdiq edir və bir nüsxə tələbədə, bir nüsxə isə fakültədə saxlanılır. Tyutorlar tələbələrə fərdi tədris və iş planlarının tərtibi üçün qrup və ya fərdi şəkildə məsləhətlər verirlər. Tələbələr fərdi tədris planlarının hazırlanmasında iştirak edirlər.

### 3.9. İxtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planının mövcud olması vəziyyəti

İxtisasın tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, tədris illəri üzrə tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən ixtisaslar üzrə illik işçi tədris planı mövcuddur. Filial ADPU-da təsdiq olunmuş illik işçi tədris planına əsasən fəaliyyət göstərir. Təhlil zamanı sənədlərdəki məlumatlar, istiqamətə aid ümumi sənədləşmə qənaətbəxş olaraq qiymətləndirilmişdir.

### 3.10.Təhsil proqramı üzrə müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən müəllimin illik işçi tədris planının mövcud olması vəziyyəti

Filialda təhsil proqramı üzrə müəllimlərin tədris etdiyi fənlərə (mühazirə, seminar məşğələ və praktik məşğələlər) ayrılan saatların miqdarını, fənlərin semestrlər üzrə tədrisini, fənn üzrə tələbələrin sayını ehtiva edən müəllimin illik işçi tədris planları mövcuddur. Müəllimin illik işçi tədris planları kafedra müdiri tərəfindən təsdiq olunur və kafedralarda illər üzrə saxlanılır. Təhsil proqramı üzrə müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən müəllimin illik işçi tədris planının mövcud olması vəziyyəti qənaətbəxş kimi qiymətləndirilmişdir.

### 3.11. Təhsil proqramında tədris növləri üzrə tədrisin təşkilinin uyğunluq dərəcəsi (Mühazirə, seminar, laboratoriya işi və praktik məşğələlərin təşkili vəziyyəti)

Təhsil proqramında tədris növləri üzrə tədrisin təşkili mühazirə və seminar formasında həyata keçirilir. Pedaqoji heyət və təhsilalanlarla keçirilən müsahibələr zamanı laboratoriya işi və praktik məşğələlərin keçirilmədiyi müəyyən olunmuşdur.

### 3.12. Təhsil proqramı üzrə məsləhət xidmətinin təşkili vəziyyəti

Təhsil proqramının icrası zamanı məsləhət xidməti təşkil olunmuşdur. Təhsil proqramı üzrə dekanlıqda iki akademik məsləhətçi fəaliyyət göstərir. Müsahibə zamanı tələbələr zəruri hallarda həmin məsləhətçilərlə əlaqə yaratdıqlarını və müvafiq dəstək aldıqlarını qeyd etdilər.

Sillabuslarda müəllimlərin məsləhət saatları üçün müvafiq xana olsa da, orada məsləhət saatlarına ayrılan vaxt qeyd olunmamışdır. Bu isə təhsil proqramı üzrə məsləhətə ehtiyacı olan tələbələrin müəllimlərlə əlaqəsini çətinləşdirir.

### 3.13. Təhsil proqramına uyğun müəllimin rəhbərliyi altında tələbələrin sərbəst işinin hazırlanmasının təşkili vəziyyəti

Təhsil proqramı üzrə sərbəst işlər auditoriya və auditoriyadankənar şəkildə təşkil olunur. Sərbəst işlərin mövzuları sillabuslarda öz əksini tapmış və həcmi keçirilən mühazirə, seminar üçün ayrılan akademik saatlara müvafiq müəyyənləşdirilmişdir. Lakin sərbəst işlərin hansı formada yerinə yetirilməsi haqqında məlumat qeyd olunmamışdır.

### 3.14. Təhsil proqramı üzrə təcrübə (tədris, pedaqoji, arxeoloji, çöl, istehsalat, diplomqabağı və s.) işinin təşkili vəziyyəti

Təhsil proqramı üzrə təcrübələr Şamaxı şəhəri ərazisində yerləşən ümumtəhsil müəssisələrində təşkil olunur. Pedaqoji təcrübə 14 həftə ərzində normativ-hüquqi tələblərə uyğun rəsmiləşdirilmişdir. Tələbələrin təcrübə gündəliyində və davamiyyət jurnallarında qeydiyyatlar aparılmışdır. Prosesin qiymətləndirməsi hər bir tələbənin təcrübə zamanı gördüyü işlər haqqında hesabat hazırlaması ilə yekunlaşır. Tələbənin təcrübə işinin nəticəsinin qiymətləndirilməsi təcrübə planının yerinə yetirilməsi səviyyəsi, davamiyyət, pedaqoq, psixoloq, ixtisas metodistinin qiymətləndirməsi və hesabat nəzərə alınmaqla sonuncu gün təşkil olunur.

### 3.15. Təhsil proqramı üzrə stajkeçmənin təşkili vəziyyəti

Təhsil proqramı üzrə stajkeçmə təşkil olunmasa da, professor-müəllim heyəti tədrisi peşə bacarıqlarının tətbiqinə dair bilik və bacarıqların təkmilləşdirilməsi məqsədilə ixtisasartırma təlimlərinə cəlb olunur. Müşahidələr zamanı bununla bağlı müvafiq sənədlər təqdim edilmişdir. Təhsil proqramı üzrə stajkeçmə məqsədi ilə keçirilən təlimlərdə iştirak edən pedaqoji heyətin sayı cədvəldə qeyd olunmuşdur.

Cədvəl 3.15. Təhsil proqramı üzrə stajkeçmənin təşkili vəziyyəti

| № | Tədris illəri | Təlimdə iştirak edən pedaqoji heyətin sayı |
|---|---|---|
| 1 | 2018-2019-cu tədris ili | 4 |
| 2 | 2019-2020-ci tədris ili | 6 |
| 3 | 2020-2021-ci tədris ili | 5 |
| 4 | 2021-2022-ci tədris ili | 7 |
| 5 | 2022-2023-cü tədris ili | 7 |
| | **CƏMİ:** | **29 nəfər** |

### 3.16. Təhsil proqramı üzrə kurs layihəsinin (işi) və referatların hazırlanması və müdafiəsi işinin təşkili vəziyyəti

Təhsil proqramında 2020-ci qəbul olunmuş tədris planına əsasən kurs işi və referatların hazırlanması nəzərdə tutulmayıb. Təhsil proqramı üzrə 15.10.2015-ci ildə və 24.04.2019-cu ildə təsdiq olunmuş tədris planlarında kurs işlərinin hazırlanması və müdafiəsi müvafiq olaraq həmin fənlərin aid olduğu kafedralarda təşkil olunmuşdur. Kurs layihələrinin

mövzuları kafedra iclaslarında müzakirə olunaraq təsdiq edilmiş və tələbələrə çatdırılmışdır. Kurs işləri mövzularının müzakirəsi və təsdiqi, bu mövzuların tələbələr tərəfindən seçilərək imzalanması müvafiq sənədlərdə öz əksini tapmışdır). Seçilmiş mövzulara uyğun elmi rəhbərlər təyin edilmiş, tələbələr üçün məsləhət saatları cədvəli tərtib olunmuşdur. Kurs işlərinin qiymətləndirilməsi ilə bağlı komissiya yaradılmış və müdafiəsi üçün gün təyin edilmişdir. Tələbələr kurs işlərini müdafiə edib, qiymətləndirilmişlər. Qiymətləndirmənin nəticələri uyğun protokollarda və qiymətləndirmə cədvəllərində öz əksini tapmışdır. 18.09.2020-ci ildə təsdiq edilmiş tədris planının məzmununda əsaslı dəyişiklik və təkmilləşmə aparılmış, kurs işləri tədris planlarından tamamilə çıxarılmışdır. Buna görə də hazırda İbtidai sinif müəllimliyi ixtisası üzrə kurs işi aparılmır.

### 3.17. Təhsil proqramına uyğun buraxılış işi və magistr dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili vəziyyət

Filialda təhsil proqramına uyğun olaraq buraxılış işlərinin hazırlanması və müdafiəsi 15.10.2015-ci ildə təsdiq olunmuş tədris planlarına əsasən yerinə yetirilmişdir. Buraxılış işləri üçün mövzular kafedralar tərəfindən müəyyən edilmiş və seçim üçün tələbələrə təqdim olunmuşdur. 18.09.2020-ci ildə təsdiq edilmiş tədris planına əsasən ali təhsil pilləsinin bakalavriat səviyyəsində buraxılış işlərinin yerinə yetirilməsi və müdafiəsi ləğv olunmuşdur.

### 3.18. Təhsil proqramı üzrə imtahan sessiyasının təşkili vəziyyəti

Təhsil proqramı üzrə imtahan sessiyası filialın 2018-ci ildə təsdiq olunmuş daxili qaydasına əsasən təşkil olunur. İmtahanlar yazılı şəkildə aparılır. İmtahan vərəqləri yoxlanılarkən şəffaflığın təminatı məqsədilə kodlaşdırılır. İmtahan suallarının qiymətləndirmə meyarları mövcuddur və tələbələr qiymətləndirmə ilə razı olmasalar, apellyasiya xidməti təşkil olunur. Tələbələrlə müsahibə zamanı da bütün bu detallar öz əksini tapmışdır.

### 3.19. Təhsil proqramı üzrə yay semestrinin təşkili vəziyyəti

Filialda yay semestri AR NK-nın 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili” qaydalarının “3.4. Yay semestrinin təşkili” bölməsinin tələblərinə uyğun olaraq təşkil olunur. Yay semestri 6 həftə davam edir və son həftədə imtahan təşkil olunur.

### 3.20. Təhsil proqramı üzrə kredit borcu olan tələbələrin tədris illəri üzrə dinamikası

Müsahibə zamanı və təqdim olunmuş sənədlərə baxış keçirilərkən təhsil proqramında son 5 tədris ili üzrə (2018-2019-cu tədris ilindən 2022-2023-cü tədris ilinə qədər) kredit borcu olan tələbələrin sayının təhlili diaqramda təqdim olunmuşdur:

Şəkil 3.20. Kredit borcu yaranan tələbələrin tədris illəri üzrə dinamikası




Son 5 illik təhlildən görünür ki, pandemiya dövründən (2020-2021-ci tədris ili) əvvəlki və sonuncu 2 il ərzində kredit borcu yaranan tələbələrin sayında artım müşahidə olunmuşdur. Pandemiya dövründə yaranmış vəziyyət növbəti tədris ilindəki tədris prosesinə təsirsiz ötüşməmiş, dərslərin hibrid modellə həyata keçirilməsi nəticəsində artım olmamışdır.

## 3.21. Təhsil proqramı üzrə kredit borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikası

Təhsil proqramı üzrə kredit borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikası aşağıdakı diaqramda öz əksini tapmışdır:

Şəkil 3.21. Kredit borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikası




Son 5 illik təhlildən görünür ki, pandemiya dövründən (2020-2021-ci tədris ili) əvvəlki və sonuncu 2 il ərzində kredit borcu yaranmış fənlərin sayında artım müşahidə olunmuşdur. Pandemiya dövründə olan çətinliklər sonrakı tədris ilindəki tədris prosesinə təsir etmiş, adaptasiya prosesi və dərslərin hibrid modellə həyata keçirilməsi bu artıma şərait yaratmışdır.

### 3.22. Təhsil proqramı üzrə tədris prosesində tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti

Struktur bölmələrlə aparılan müsahibələr nəticəsində məlum oldu ki, təhsil proqramı üzrə tədris prosesinin daha da yaxşılaşdırılması məqsədilə Keyfiyyət Təminatı Mərkəzi tərəfindən mütəmadi olaraq monitorinqlər aparılır. Kafedra müdirləri ilə aparılan müsahibələrdə qeyd olundu ki, açıq dərslər zamanı, Keyfiyyətin Təminatı Mərkəzi ilə öncədən xəbərdarlıq edilmədən bütün fənlər  üzrə tədris izlənilir. Bununla bağlı Komissiyaya dərslərin qiymətləndirmə meyarları da təqdim olunmuşdur. Əldə olunan nəticələrə əsasən filialın professor-müəllim heyəti təkmilləşdirmə kurslarına cəlb olunur. Dəyişikliyə sübut olaraq “Təhsilin fəlsəfəsi” fənninin tədrisinin 3-cü kursa keçirilməsi, tələbələrlə aparılan müsahibədən gəlinən nəticəyə görə mühazirə müəllimlərinə fəal təlimlə bağlı qoyulan tələbləri nümunə göstərmək olar.

## 4.TƏHSİL PROQRAMI ÜZRƏ TƏTBİQ OLUNAN TƏDRİS METODLARI VƏ ÜSULLARI

### 4.1. Təhsil proqramı üzrə təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə vəziyyəti

Akkreditasiya komissiyasının üzvləri tərəfindən bir neçə dərs dinlənilmişdir.
İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası - Köməkçi nitq hissələri;
Təhsil sistemi və layihələrin idarə olunması – Elektron məktəb idarəetmə modeli;
Psixologiya-Temperament və onun tipləri.
Dinlənilən dərslərdə aşağıdakı məqamlar müşahidə olunmuşdur:

- Dərslər ənənəvi təlim metodlarından istifadə edilərək təşkil olunmuşdur;
- Müşahidə olunan dərslərdə frontal və fərdi sorğudan istifadə olunmuşdur;
- Dərslər Pover Point proqramında hazırlanan slaydlar vasitəsilə təqdim olunmuşdur;
- Dərs zamanı gətirilən nümunələr yalnız dərslikdən idi, real həyatla əlaqələndirmə zəif idi;
- Dərslərdə qrup işindən istifadə olunmasına baxmayaraq, qrup işi dərsin məqsədinə müvafiq olaraq təlim nəticəsinin reallaşdırılmasına xidmət etmirdi;
- Qrup işlərinin qiymətləndirilməsi və seminarın ümumi qiymətləndirilməsi təşkil olunmamışdı;
- Dərs prosesində istifadə olunmuş üsullar formal xarakter daşıyırdı;
- Qrup daxilində tələbələrin bir-birini qiymətləndirməsi subyektiv xarakter daşıyırdı və tələbələrin fərdi subyektiv rəyləri əsasında aparılırdı;
- Sillabusda fənn üzrə təlim nəticələri göstərilsə də, mövzular üzrə qeyd olunmamışdı;
- Qrup bölgüsü və tapşırığın təlimatları qeyd olunmamış, tələbələrin kortəbii şəkildə yerlərini dəyişməsi müşahidə edilmişdir;
- Qrupda tələbə sayı qeyri-bərabər idi. Qruplarda tələbələrin seçimi kortəbii aparıldığı üçün təlim nəticələri yüksək deyildi, daha aktiv tələbələr bir qrupda cəmlənmişdi.

### 4.2. Təhsil proqramı üzrə tədris metodlarında tələbəyönümlü, problemyönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə vəziyyəti

Müşahidə edilən dərslərə əsasən müəllimlər tərəfindən seçilmiş tədris metodları nəzəriyyənin təcrübədə tətbiqinə əsaslansa da, problemin həllinə yönəlmiş, tələbələrdə tənqidi və yaradıcı təfəkkürün inkişafına xidmət edən innovativ tədris metodlarından istifadə müşahidə olunmadı.

### 4.3. Təhsil proqramı üzrə tədris metodlarının bütün təhsil formalarında tətbiqinin mümkünlüyü vəziyyəti

Sahə baxışı zamanı akademik heyət, tələbələrlə müsahibə, dərslərin müşahidəsi zamanı aparılan müsahibələrdən, mövcud vəziyyətin qiymətləndirilməsi nəticəsində məlum olmuşdur ki, müasir tədris metodlarının tətbiqi istiqamətində müəllimlərin peşəkar səriştəliliyinin inkişafı zəruridir.

### 4.4. Təhsil proqramı üzrə tətbiq edilən tədris metodlarında daha çox dərindən öyrənmə, maraqlanma, motivasiya olunma və öhdəlik götürmə yanaşmalarının istifadəsi vəziyyəti

Təhsil proqramı üzrə müşahidə olunan dərslərdə daha çox ənənəvi tədris metodlarından istifadə olunurdu. Dərslərin müşahidəsi zamanı müəllimlər sual-cavabdan istifadəyə üstünlük verirdi. Bəzi müəllimlər tərəfindən interaktiv təlim metodlarından istifadə olunsa da, bunun azlıq təşkil etməsi müşahidə olunmuşdur.

### 4.5. Təhsil proqramı üzrə tədris səviyyələrindən və tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırılmış tədris metodlarının və üsullarının tətbiqi vəziyyəti

Sahə baxışı zamanı müşahidələrə əsasən professor-müəllim heyəti tərəfindən bəzi fənтlərin tədrisi zamanı tədris səviyyələrindən və tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırılmış tədris üsullarının tətbiqi vəziyyəti qənaətbəxş kimi qiymətləndirilmişdir. Tələbələrin fərdi xüsusiyyətləri nəzərə alınmışdır. Belə ki, proyektor vasitəsilə təqdim edilən slaydlar həm vizual, həm də audial öyrənənlərin mənimsəməsinə xitab edir, praktikyönümlü tapşırıqların həlli isə kinestetik tələbələrin tədris materialını qavramasına hesablanmışdır. “Psixologiya”, “Təhsil sistemi və layihələrin idarə olunması” və “İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası” fənnləri üzrə aparılan müşahidələr zamanı naturalist, verbal intellektə sahib tələbələrin fərdi xüsusiyyətlərinin nəzərə alınması müəyyənləşdirilmişdir.

### 4.6. Təhsil proqramı üzrə tədris prosesinin aktiv öyrənməni təşviq edən texnoloji imkanlar və yanaşmalarla zənginləşdirilməsi vəziyyəti

Təhsil proqramı üzrə kadr hazırlığı müvafiq maddi-texniki baza ilə təmin olunmuşdur. Bəzi otaqlar internet və texniki avadanlıqlarla (proyektor, elektron lövhə) təchiz olunmuşdur. Auditoriya sayı - 6; Proyektorla təchiz olunmuş auditoriya sayı - 5; Ağıllı lövhə ilə təchiz olunmuş auditoriyaların sayı - 4; Kompüterlərin sayı - 36.

Professor-müəllim heyəti və tələbələrlə aparılmış müsahibələr və dərsdinləmələr zamanı bəzi fənlərin tədrisində elektron avandanlıqlardan istifadə müşahidə olunmuşdur.

Təhsil proqramı üzrə tədris prosesinin aktiv öyrənməni təşviq edən texnoloji imkanlar və yanaşmalarla zənginləşdirilməsi istiqamətində daxili keyfiyyət təminatı və tədris şöbələrinin hesabatlarında zəruri addımların atılması haqqında qeydlər mövcuddur. Belə ki,

Daxili Keyfiyyət Təminatı üzrə müəssisənin fəaliyyətinə dair illik hesabatında qiymətləndirmənin vəziyyəti, tələbəmərkəzli öyrənmə, müxtəlif tədris metodlarının tətbiqinə dair məlumat əks olunmuşdur.

Tədris şöbəsinin Təhsil proqramı üzrə 2018-2023-cü tədris illərinə dair hesabatlarında innovativ tədris və təlim metodlarının tətbiqi haqqında məlumat yer almışdır.

## 4.7. Təhsil proqramı üzrə yeni təlim və tədris metodlarının və interaktiv öyrənməni təşviq etmə vəziyyəti

Filialda professor-müəllim heyəti üçün interaktiv təlim metodlarının tətbiqinə dair təlim təşkil olunmuşdur. Təlimin nəticəsinə əsasən bir sıra fənlərin tədrisində interaktiv təlim metodlarından istifadə olunur. Lakin müşahidələr və tələbələrlə müsahibə zamanı müəyyən olunmuşdur ki, onların tətbiqi sistemli deyil, daha çox fraqmental xarakter daşıyır.

Kafedralar tərəfindən təqdim olunan siyahı əsasən Təhsil proqramı üzrə dərs deyən müəllimlər müxtəlif təlimlərdə iştirak etmişlər:

2018-ci ildə 3 təlimdə

2019-cu ildə 12 təlimdə

2020-ci ildə 6 təlimdə

2021-ci ildə 16 təlimdə

2022-ci ildə 19 təlimdə

2023-cü ildə 15 təlimdə iştirak etmişlər

Təlimlər: İnklüziv təhsil, Onlayn təhsil, Yeni yanaşma, Kurikulum, Sinfin idarə olunması, layihələrin idarəolunması və s. mövzuları əhatə etmişdir.

## 4.8. Təhsil proqramı üzrə tədris metod və üsullarının dövrü olaraq monitorinq və preventiv tədbirlərin sistematik olaraq qiymətləndirilməsi və təkmilləşdirilməsi vəziyyəti

Filialda keçirilən müsahibə zamanı Keyfiyyət təminatı şöbəsi tərəfindən davamlı olaraq tədris metodlarının monitorinqinin aparılması, monitorinqlər zamanı təsadüfən seçilmiş dərslərdə iştirak, tədris üsullarının tətbiqi məsələlərinin qiymətləndirilməsi qeyd olunmuşdur. Nəticədə filialın professor-müəllim heyətinə "Tədris metodları və üsullarının tətbiqi" mövzusunda təlimlər keçirilmişdir. Filialda professor-müəllim heyəti, tələbələrlə aparılmış müsahibələr və dərsdinləmələr zamanı müəyyənləşdirilmişdir ki, bəzi fənlərin tədrisi zamanı

ənənəvi metodlar tətbiq edilsə də, fəal təlim metodları da istifadə olunur. Dərslərin müşahidəsi və tələbələrlə müsahibədən belə nəticə çıxarılmışdır ki, onların tətbiqi səviyyəsi təkmilləşdirilməli, problemli vəziyyətlərin həlli, layihə metodu, tənqidi və yaradıcı təfəkkürün inkişafına yönələn təlim metodlarından istifadə daha da zənginləşdirilməlidir.

Sahə baxışı zamanı təqdim olunmuş sənədlərə əsasən ("Sosial və pedaqoji elmlər" kafedrasının 06.12.2021-ci il tarixli iclasının 4 saylı; 12.09.2022-ci il tarixli iclasının 1 saylı; 22.05.2023-cü il tarixli iclasının 8 saylı; "Riyaziyyat və kompüter elmləri" kafedrasının 20.12.2022-ci il tarixli; 30.05.2023-cü il tarixli; 14.02.2022, N5; "Dil-ədəbiyyat və onların tədrisi texnologiyası" kafedrasının 14.10.2022-ci il tarixli; 14.02.2023-cü il tarixli; 11.07.2023-cü il tarixli protokollarından çıxarış) müəyyən olunmuşdur ki filialda açıq dərslərin müzakirəsi təşkil olunur, fəal təlim metodlarından istifadə kafedra iclaslarında müzakirə olunur, dinlənilmiş dərslərin uğurlu və uğursuz cəhətləri, metodlar, əyani və texniki vasitələrdən istifadənin təhlili aparılır.

## 5.TƏHSİL PROQRAMI ÜZRƏ İSTİFADƏ OLUNAN TƏLİM VƏ TƏDRİS RESURSLARI

### 5.1. Təhsil proqramı üzrə öyrənmə və tədris ehtiyaclarını tam ödəyə bilən, istifadəçi yönümlü, sinxron və asinxron öyrənmə, həmçinin ölçü və qiymətləndirmə imkanlarına malik olan təlim və tədrisin elektron idarəetmə sisteminin mövcudluğu vəziyyəti

Filialda təhsil proqramı üzrə distant tədris sisteminin asinxron və sinxron tədris metodları tətbiq edilir. Asinxron tədris metodu üzrə ixtisas tələbələri tədris metodik materiallardan istifadə edə bilirlər. Sinxron tədris metodu üzrə dərslər mühazirələr, seminarlar, məsləhət saatları əsasında təşkil edilir. AR ETN-nin ATİS, Microsoft 365, Moodle və s. platformaları vasitəsi ilə tələbələr üçün tədris imkanları genişləndirilir və əlçatanlıq təmin edilir. Təhsil proqramı üzrə Moodle TİS (Tədrisin İdarəolunması Sistemi) platforması tətbiq edilmiş və ADPU-nun rəsmi internet səhifəsi üzərindən istifadəyə açıq elan olunmuşdur : https://e-learning.adpu.edu.az/login/index.php

Bu platforma əsasında akademik heyətin tədris zamanı kurs materiallarından, sillabuslardan, tapşırıqlardan, imtahan suallarından istifadə imkanları genişlənir. Eyni zamanda, tədris mühitinin asanlıqla təşkilinə, tədrisdə vaxt itkisinin qarşısının alınmasına, distant tədris mühitinin formalaşmasına şərait yaranır.

### 5.2 .Təhsil proqramı üzrə müasir təlim prosesini aparmaq üçün texnika (proyektorlar, kompüter, ağıllı lövhələr və s) ilə tam təchiz olunmuş auditoriyaların mövcudluğu vəziyyəti

Təhsil proqramı üzrə təlim prosesinin müasir tələblərə uyğun təşkili və həyata keçirilməsinə xidmət edən texniki avadanlıqla (proyektorlar, kompüter, ağıllı lövhələr və s) təmin olunmuş auditoriyalar mövcuddur. Auditoriyaların internetə çıxışı təmin olunmuşdur. Texniki avadanlıqların sayı cədvəldə təqdim olunmuşdur. Filialda kompüter otağı mövcuddur. Otaqdan digər ixtisaslar üzrə təhsil alan tələbələr də yararlanır.

Cədvəl 5.2. Təhsil proqramı üzrə texnika (proyektorlar, kompüter, ağıllı lövhələr və s) ilə tam təchiz olunmuş auditoriyaların mövcudluğu vəziyyəti

| № | Texniki avadanlıqlar | Sayı |
|---|---|---|
| 1 | Kompüter | 36 |
| 2 | Proyektor | 5 |
| 3 | Ağıllı lövhə | 4 |

## 5.3. Təhsil proqramı üzrə tələbənin təlim prosesində iştirakını/aktivliyini qeydə alan tam funksional elektron tədris platformasının və jurnalın mövcudluğu vəziyyəti

Tələbələrin təlim prosesində iştirakını, aktivliyini təmin edən platforma mövcuddur (MOODLE TİS). Həmin proqram vasitəsilə pedaqoqlar tələbələri təlim materialları, sillabuslar, resurslar və s. ilə təmin edir, müxtəlif istiqamətlər üzrə fəaliyyət təşkil edirlər. Platformada professor-müəllim heyəti tərəfindən hər dərs üçün material toplusu (pdf) və mövzunun qısa təsviri (slaydlar) yerləşdirilmişdir. Hər iki material işlək vəziyyətdədir. Tələbələr tərəfindən materiallar yükləndikdən sonra istifadə olunur. Həmçinin tələbələr üçün təqdim olunmuş testlərin həll olunması üçün də şərait yaradılmışdır. Burada tələbələrin platformaya nə vaxt daxil olması və nə vaxt xaric olması haqqında data məlumat toplanılır. Tələbələrin davamiyyəti və aidiyyatı üzrə digər fəaliyyətlər elektron jurnal vasitəsilə həyata keçirilir.

## 5.4. Tədris prosesi ilə bağlı rəqəmsal xidmətlərin və texniki təminatın təhsil proqramlarına uyğunluğu

Təhsil proqramı üzrə tədris prosesi ilə bağlı rəqəmsal xidmətləri yerinə yetirmək üçün filialda İKT şöbəsi fəaliyyət göstərir. Elektron kitabxana mövcud olmasa da, təhsil proqramı üzrə auditoriyaların əksəriyyətində proyektor, ağıllı lövhələr mövcuddur. Dərslərin gedişatında da bu xidmətlərdən istifadəni real şəkildə görmək mümkündür.

### 5.5. İnternetə qoşulmuş kompüterlərin və kompüter laboratoriyalarının mövcudluğu vəziyyəti

Təhsil proqramı üzrə tədris aparılan auditoriyalarda kompüterlər işlək vəziyyətdədir. Ümumilikdə 36 kompüter, 2 kompüter laboratoriyası mövcuddur. Professor-müəllim heyəti və təhsilalanlar üçün dərslərdə internetdən və kompüterlərdən istifadə əlçatandır. Komissiya üzvləri ilə iştirak etdiyimiz dərslərdə də bunun şahidi olduq.

### 5.6. Təhsil proqramı üzrə auditoriya fondunun (kv m.) onun tələbə sayına uyğunluğu

Təhsil proqramı üzrə auditoriya fondunun (kv m.) onun tələbə sayına uyğunluğu AR NK-nın 2012-ci il 3 avqust tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş “Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri”nə uyğundur**.**

Cədvəl 5.6. Təhsil proqramı üzrə auditoriya fondunun (kv m.) onun tələbə sayına uyğunluğu vəziyyəti

| Auditoriya sayı | Auditoriyanın sahəsi | Tələbə sayı | Bir tələbəyə düşən sahə |
|---|---|---|---|
| 6 | 436.22 kv.m | 184 nəfər | 2.3 kv.m |

Cədvəldəki məlumatlara əsasən hər tələbəyə 2.3 kv.m sahə düşür ki, bu da tələbənin işləməsi üçün məqsədəmüvafiqdir.

### 5.7. Təhsil proqramı üzrə akademik və inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunun inkişaf dinamikası

Təhsil proqramı üzrə akademik və inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondu cədvəldəki kimi təqdim edilmişdir:

Cədvəl 5.7. Təhsil proqramı üzrə akademik və inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunun inkişaf dinamikası

| Otaqların təyinatı | Otaqların sayı | Otaqların ümumi sahəsi |
|---|---|---|

| | | |
|---|---|---|
| Akademik heyət üçün | 7 | 323,94 kv.m |
| İnzibati heyət üçün | 16 | 338,76 kv.m |
| **Cəmi:** | **23** | **662,7 kv.m** |

Təqdim edilən məlumatlarla mövcud vəziyyət eyniyyət təşkil edir.

## 5.8. Kitabxananın eyni zamanda (elektron və bilavasitə) təhsil proqramı üzrə tələbə və akademik heyətinin sayına nisbətdə xidmət imkanlarının artım dinamikası

Müşahidələr nəticəsində müəyyən olunmuşdur ki, kitabxananın oxu zalında həm pedaqoji heyətin, həm də tələbələrin elektron resurslardan geniş istifadəsini təmin etmək məqsədilə kompüterlər yerləşdirilmiş və onların internetə çıxışı təmin olunmuşdur. Bununla yanaşı, Elektron kitab fondunda ötən illərlə nisbətdə artım müşahidə olunur. İllər üzrə artım cədvəldə əks olunmuşdur.

Cədvəl 5.8. Kitabxananın eyni zamanda (elektron və bilavasitə) təhsil proqramı üzrə tələbə və akademik heyətinin sayına nisbətdə xidmət imkanlarının artım dinamikası

| Tədris illəri | Kitabxanadan istifadə edən professor-müəllim heyətinin sayı | Kitabxanadan istifadə edən tələbələrin sayı |
|---|---|---|
| 2018-2019 | 25 | 93 |
| 2019-2020 | 23 | 87 |
| 2020-2021 | 26 | 79 |
| 2021-2022 | 26 | 132 |
| 2022-2023 | 28 | 134 |

## 5.9. Təhsil proqramı üzrə kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin (elektron və çap şəklində) artım dinamikası

Son 2 tədris ilini (2021-2022 və 2022-2023-cü tədris ili) nəzərə alsaq, həm çap, həm də elektron dərslik və dərs vəsaitlərinin sayında böyük artım müşahidə olunur. İllər üzrə artım cədvəldə öz əksini tapmışdır:

Cədvəl 5.9. Təhsil proqramı üzrə kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin (elektron və çap şəklində) artım dinamikası

| **Tədris ili** | **Çap vəsaitlərinin sayı** | **Elektron vəsaitlərin sayı** | **Cəmi** |
|---|---|---|---|
| 2018-2019 | 30 | 15 | 45 |
| 2019-2020 | 27 | 15 | 42 |
| 2020-2021 | 0 | 15 | 15 |
| 2021-2022 | 145 | 15 | 160 |
| 2022-2023 | 108 | 48 | 156 |

### 5.10. Təhsil proqramı üzrə tədris dillərinə uyğun kitab fondunun mövcudluğu və artım dinamikası

Təhsil proqramı üzrə tədris dillərinə uyğun kitab fondu mövcuddur. Filialda tədris prosesi Azərbaycan dilində aparılır. Buna müvafiq olaraq Azərbaycan dilində olan ədəbiyyatlar üstünlük təşkil edir. Eyni zamanda, kitabxanada rus və ingilis dilində də ədəbiyyat mövcuddur. Ümumilikdə, kitabxanada Azərbaycan dilində 1781 nüsxə, rus dilində 22 nüsxə, ingilis dilində 303 nüsxə kitab mövcuddur. Son 5 il ərzində hər 3 dil üzrə ədəbiyyat siyahısında artım müşahidə olunmuşdur. Kitab fondundakı mövcud resurslar pedaqoji və metodiki məzmunu daha çox əhatə edirdi. Həmçinin kitab fondunda təhsilalanların dünyagörüşünün formalaşmasına təsir göstərən vəsaitlər də mövcuddur.

### 5.11. Təhsil proqramı üzrə dərslik və elmi ədəbiyyatlardan istifadə üçün ayırılan vəsaitin həcmində artım dinamikası

Son 5 il ərzində təhsil proqramı üzrə dərslik və elmi ədəbiyyatlardan istifadə üçün ayırılan vəsaitin həcmində artım müşahidə olunmuşdur. Dərsliklər üçün maliyyə ayrılması yalnız son 2 tədris ilində müşahidə olunur. Elmi ədəbiyyat üçün ayrılmış maliyyə, pandemiya dövrü istisna olmaqla, bütün illərdə müşahidə olunmuşdur. 5 illik tədris ili müddətində ilk 2 il ərzində nisbətən az, son 2 il müddətində isə daha yüksək maliyyə ayrılmışdır. Sonuncu tədris ilində dərsliklərə ayrılmış maliyyə elmi ədəbiyyata ayrılmış maliyyədən daha yüksəkdir.

Yalnız pandemiya dövründə - 2020-2021-ci tədris ilində ədəbiyyatın alınması üçün heç bir maliyyə ayrılmamışdır. İllər üzrə maliyyənin ayrılması aşağıdakı kimidir:

Şəkil 5.11. Təhsil proqramı üzrə dərslik və elmi ədəbiyyatlardan istifadə üçün ayrılan vəsaitin həcminin tədris illəri üzrə dinamikası




## 5.13 Təhsil proqramı üzrə təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğu və təhsilalanlar üçün əlçatanlıq vəziyyəti

Sahə baxışı zamanı müəyyən olunmuşdur ki, Təhsil proqramı üzrə təhsil alan tələbələrə əlçatanlığı təmin etmək məqsədilə MS Teams proqramından istifadə olunur. Mühazirə mətnləri, sərbəst iş mövzuları, dərsliklər, dərs vəsaitləri MOODLE platforması və MS Teams proqramına yüklənir və tələbələr istənilən vaxt ondan yararlana bilirlər. Kitabxanada sillabuslarda qeyd olunmuş əsas ədəbiyyat nümunələrinin əksəriyyətinə rast gəlinir.

## 5.14. Təhsil proqramı üzrə təhsil alan sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resurslarının mövcudluğu vəziyyəti

İbtidai təhsil proqramı üzrə təhsil alan tələbələr arasında sağlamlıq imkanları məhdud şəxslərə rast gəlinmir. Filialda fəaliyyət göstərən RİİB tərəfindən maliyyələşən İnklüziv təhsil mərkəzində müəllimlər və tələbələr  üçün inklüziv təhsillə bağlı təlimlər keçirilir. Sağlamlıq imkanları məhdud şəxslərə tədris resurslarının əlçatanlığını təmin etmək üçün addımlar atılır.

## 5.15 Təhsil proqramı üzrə təlim və tədris resurslarının  davamlı olaraq təkmilləşdirilməsi vəziyyəti

Filialda sahə baxışı zamanı qeyd olundu ki, təlim və tədris resuslarında müəyyən olunmuş ehtiyaclara müvafiq təkmilləşdirmələr aparılır və müvafiq resurslarla təmin olunma sistemli xarakter daşımasa da, müvafiq fəaliyyət izlənilir: kitabxana fondu tələbələrin istəklərinə əsasən elektron formada tərtib edilmişdir. Kitab fondunun təkmilləşdirilməsinə dair sənəd təqdim olunmamışdır.

## 6.TƏDRİS PROQRAMI ÜZRƏ TƏLƏB OLUNAN TƏHSİL İNFRASTRUKTURU VƏ MADDİ-TEXNİKİ BAZA

### 6.1. Təhsil proqramı üzrə tədris otaqlarının dövlət standartlarına uyğunluğu vəziyyəti

Təhsil proqramı üzrə tədris üçün nəzərdə tutulmuş otaqların dövlət standartlarına uyğunluğu vəziyyəti qənaətbəxşdir. Proqram üzrə 6 auditoriya, akt zalı, Heydər Əliyev Lektoriyası, RİİB nəzdində İnklüziv təhsil mərkəzi, kitabxana, bufet, tibb otağı mövcuddur. Bütün otaqlarda müvafiq olaraq zəruri mebel avadanlıqlar, informasiya-kommunikasiya texnologiyaları, texniki vəsaitlər yerləşdirilmişdir. Otaqların həcmi, həyətyanı sahə, təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalara uyğunluq vəziyyəti qənaətbəxşdir.

### 6.2. Təhsil proqramı üzrə ədəbiyyat və digər təlim resurslarının mövcudluğu vəziyyəti

Təhsil proqramı üzrə ədəbiyyat və digər təlim resurslarının mövcudluğu qənaətbəxşdir. İxtisas üzrə 9874 nüsxə kitab vardır. Bunlardan 9765 nüsxəsi çap, 110 nüsxəsi isə elektron formadadır. Müəllimlərin mühazirə mətnləri elektron formada kitabxanada mövcuddur.

Sahə baxışı zamanı təhsil proqramı üzrə ədəbiyyat siyahısının və digər təlim resurslarının mövcudluğu vəziyyəti qənaətbəxşdir. Sillabuslarda təqdim olunan ədəbiyyat siyahısı tam olmasa da, müəyyən qismi kitabxanada mövcuddur. Sahə baxışı zamanı müəllimlərin mühazirə mətnlərinin elektron formada mövcudluğunu müşahidə olundu. Həmçinin kitabxana informasiya təminatının genişlənməsini həyata keçirmək məqsədi ilə sürətli internet şəbəkəsinə qoşulmuşdur. Oxu zalında müasir kompüterlərin mövcudluğunun şahidi olduq. Kitabxana rəhbəri ilə müsahibə zamanı filialın rəsmi saytında ADPU-nun elektron kitabxanasına (kitabxana.adpu.edu.az), həmçinin digər informasiya saytlarına giriş əldə edilməsi bildirildi. Fondun zənginləşdirilməsi məqsədilə, ADPU və ölkənin digər nüfuzlu ali təhsil müəssisələri ilə, AMEA ilə əməkdaşlıq edilir.

### 6.3. Təhsil proqramı üzrə təlim və tədris bazasının mövcudluğu vəziyyəti

Təhsil proqramı üzrə təlim və tədris bazasının mövcudluğu vəziyyəti qənaətbəxşdir. Belə ki, texniki avadanlıqlar işlək vəziyyətdədir və həm təhsilverənlərin, həm də təhsilalanların xidmətindədir. Həmçinin dərslik və dərs vəsaitlərinin elektron və əyani şəkildə mövcudluğu vəsaitlərin hamı üçün əlçatanlığını təmin edir. Filialda kompüter laboratoriyası fəaliyyət göstərir. Sahə baxışı zamanı müşahidə olunan dərslərdə auditoriyalar texniki avadanlıqlarda təchiz olunmuşdur.

### 6.4. Təhsil proqramı üzrə tədris laboratoriyalarının mövcudluğu vəziyyəti

Təhsil proqramı üzrə İnklüziv təhsil mərkəzi, 2 kompüter laboratoriyası fəaliyyət göstərir. Hər bir otaq zəruri avadanlıq, elektron resurslarla və internet şəbəkəsinə çıxışla təmin olunmuşdur. İxtisas üzrə praktik fənlərin tədrisini təmin edən laboratoriya və ya emalatxana tipli otaqlar mövcud deyil.

### 6.5. Təhsil proqramı üzrə istehsalat-təcrübə bazasının mövcudluğu vəziyyəti

Filialda təhsil proqramı üzrə pedaqoji təcrübənin təşkil olunması üçün rayonun qabaqcıl ümumtəhsil məktəbləri ilə illər üzrə müqavilələr bağlanılır və pedaqoji təcrübənin təşkili prosesi icra olunur. Sahə baxışı zamanı təqdim olunmuş sənədlərə əsasən aşağıda adları qeyd olunan müəssisələrlə pedaqoji təcrübənin keçirilməsinə dair müqavilələr bağlanılmışdır.

Cədvəl 6.5. 2018-2023-cü illərdə pedaqoji təcrübə keçirilən müəssisələr haqqında məlumat

| **İllər** | **Şamaxı şəhər 1 №-li tam orta məktəb** | **Şamaxı şəhər 6 №-li tam orta məktəb** | **Şamaxı şəhər 2 №-li tam orta məktəb** | **Şamaxı Avropa liseyi** | **Şamaxı şəhər 9 №-li tam orta məktəb** | **Şəhriyyar qəsəbə tam orta məktəbi** |
|---|---|---|---|---|---|---|
| 2018-2019 | + | + | + | | | |
| 2019-2020 | + | + | + | + | | |
| 2020-2021 | | | | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 2021-2022 | | | + | + | + | |
| 2022-2023 | | + | + | | + | + |

Pandemiya dövrünə təsadüf etdiyi və pedaqoji təcrübə keçirilmədiyi üçün cədvəldə 2020-2021-ci tədris ilinə dair heç bir qeyd əks olunmamışdır.

### 6.6. Təhsil proqramı üzrə distant təhsil infrastrukturunun mövcudluğu vəziyyəti

Filialda Təhsil proqramı üzrə tədris, əsasən, ənənəvi formada aparılır. Bununla yanaşı, distant təhsilin asinxron formasından da istifadə edilir. Belə ki, sərbəst işlər, tapşırıqlar, mühazirə mətnləri, sillabuslar Moodle platformasından istfadə etməklə tələbələrə çatdırılır.

### 6.7. Təhsil proqramı üzrə tədris infrastrukturundan istifadənin əlçatanlığı vəziyyəti

Təhsil proqramı üzrə mövcud tədris infrastrukturu təhsilalanlar, akademik və inzibati heyət üçün tam əlçatandır. Mövcud resurslar həm əyani, həm də distant şəkildə təqdim edilir. Belə ki, dərslik, dərs vəsaitləri, təlim materialları kitabxanada çap və elektron formada mövcuddur. Kompüter laboratoriyası, İnklüziv tədris mərkəzindən təhsilalanlar və akademik heyət istifadə edir.

### 6.8. Təhsil proqramı üzrə sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturunun mövcudluğu vəziyyəti

Təhsil proqramı üzrə sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturunun mövcudluğu vəziyyəti qənaətbəxş deyil. Belə ki, filial daxilində pillələnlər, panduslar, sağlamlıq imkanları məhdud tələbələrin mərtəbələr arasında rahat hərəkətini təmin etmək üçün lift, qapılar üzərində brayl əlifbası ilə yazılar mövcud deyil.

### 6.9. Təhsil proqramı üzrə tədris infrastrukturunun istifadəsinin monitorinqinin aparılması vəziyyəti

Müsahibə zamanı qeyd olunmuşdur ki, filial rəhbərliyi və müvafiq şöbə (Keyfiyyət təminatı şöbəsi) tərəfindən aparılmış monitorinqlər nəticəsində ehtiyaclar müəyyən olunmuş və bəzi tədris auditoriyaları interaktiv lövhə, proyektor və kompüter ilə təmin olunmuşdur.

Filialda təhsil proqramı üzrə tədris infrastrukturunun istifadəsinin monitorinqi ilə bağlı sənəd təqdim olunmamışdır.

## 7.TƏHSİLALANLARIN BİLİK VƏ BACARIQLARININ QİYMƏTLƏNDİRİLMƏSİ VƏ TƏHSİL SƏNƏDİNİN VERİLMƏSİ

### 7.1. Təhsil proqramı üzrə bilik və bacarıqların qiymətləndirilməsi sistemi ilə bağlı prosedur və qaydaların mövcudluğu vəziyyəti

Təhsil proqramı üzrə təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi AR TN-nin 11.09.2008-ci il tarixli 1060 saylı əmri ilə təsdiq edilmiş "Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında Əsasnamə"nin tələblərinə və "ADPU-da bakalavriat səviyyəsində tələbələrin dövlət attestasiyası haqqında Qaydalar"a uyğun olaraq həyata keçirilir.

### 7.2. Təhsil proqramı üzrə qiymətləndirmə meyarlarının ölçüləbilən və etibarlı olması vəziyyəti

Filialda sahə baxışı zamanı qeyd olunmuşdur ki, qiymətləndirmə Azərbaycan Respublikası Təhsil Nazirliyinin 11.09.2008-ci il tarixli 1060 saylı əmri ilə təsdiq edilmiş "Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında Əsasnamə"yə uyğun həyata keçirilir.

Sahə baxışı zamanı məlum olmuşdur ki, seminar, məşğələ və laborator dərslərdə tələbələrin biliyinin qiymətləndirilməsi yuxarıda qeyd olunan sənəddəki meyarlara əsasən aparılır. Həmin qiymətləndirmə meyarları daha çox hafizənin ölçülməsinə yönəlikdir. Sahə baxışı zamanı (dərs müşahidələri, sillabuslar, tələbələrlə keçirilən sorğular) müəyyənləşdirilmişdir ki, qiymətləndirmə meyarlarının ölçüləbilən və etibarlı olması kifayət qədər təmin edilmir. Müəssisədaxili yeni, ölçüləbilən və etibarlı qiymətləndirmə meyarların işlənilməsi məsələsinə baxılmalıdır.

### 7.3. Təhsil proqramı üzrə qiymətləndirmədə müxtəlif təlim formalarından (üz-üzə, məsafədən, qarışıq, açıq və s.), metod və vasitələrdən istifadə olunması vəziyyəti

Təhsil proqramı üzrə qiymətləndirmədə müxtəlif təlim formalarından (üz-üzə, məsafədən, qarışıq, açıq və s.), metod və vasitələrdən istifadə olunması az hallarda müşahidə olunmuşdur. Qiymətləndirmənin müxtəlif üsullarından istifadə olunmur və ya ənənəvi üsullara müraciət olunur. Filialda aparılan müsahibələr zamanı məlum olmuşdur ki, qiymətləndirmə zamanı daha çox yazılı və şifahi sorğulara üstünlük verilir.

### 7.4. Təhsil proqramı üzrə qiymətləndirmədə ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması və qiymətin əsaslandırılması vəziyyəti

Sahə baxışı zamanı məlum olmuşdur ki, təhsil proqramı üzrə qiymətləndirmədə təhsilverənlərin ədalətliliyinin, obyektivliyinin, şəffaflığının təmin olunması və qiymətin əsaslandırılması başlıca vəzifə hesab edilir. Apellyasiya komissiyası, İmtahan qərargahı və İctimai Şuranın fəaliyyəti təhsilalanların bilik və bacarığının ədalətli, obyektiv və şəffaf qiymətləndirilməsinə yönəldilmişdir və təqdim edilmiş sənədlərlə (Apellyasiya komissiyasının sənədləri və imtahan qərargahının hesabatları) öz təsdiqini tapır.

Filialda müşahidə olunan dərslər zamanı müəyyən olunmuşdur ki, təhsil proqramı üzrə təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi AR TN-nin 11.09.2008-ci il tarixli 1060 saylı əmri ilə təsdiq edilmiş “Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında Əsasnamə”nin tələblərinə uyğun həyata keçirilir, Dərslərin müşahidəsi zamanı müəyyən olunmuşdur ki, tələbələrə ünvanlanan suallar mövzuya dair olsa da, hafizəyönümlü idi, sual-cavab prosesində bəzi tələbələr diqqətdən kənarda qalır, interaktivlik tam təmin olunmur.

Ədalətlilik prinsipi demək olar ki, təmin edilirdi, suallara cavab vermək istəyən hər bir öyrənənin fikri dinlənilirdi, sual-cavabda iştirak etmək istəyən bütün tələbələr öz fikirlərini bildirdilər və qiymətləndirmə aparıldı.

Şəffaflıq prinsipi qorunurdu, tələbələrin aldıqları qiymətlər dərs prosesində səsləndirildi.

Qiymətləndirmənin meyarlar əsasında həyata keçirilməsi təhsilalanların irəliləmə və geriləmə prosesini daha dəqiq izləmək imkanı yaradır və qiymətləndirmədə obyektivlik prinsipinin reallaşdırılmasını təmin edir. Müşahidə olunan dərslərlə qiymətləndirmənin hansı meyarlar əsasında aparılması öyrənənlərə açıqlanmamışdır.

### 7.5. Təhsil proqramı üzrə qiymətləndirmədə təhsilalanların özünüqiymətləndirmə bacarığının formalaşması, sərbəst öyrənmə istəyinin yaradılması və təlimin keyfiyyətinin yüksəldilməsinə nail olunması amillərinin nəzərə alınması vəziyyəti

Təhsil proqramı üzrə aşağıda adları qeyd olunan fənnlər üzrə dərslər müşahidə olunmuşdur:

İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası - Köməkçi nitq hissələri;

Təhsil sistemi və layihələrin idarə olunması – Elektron məktəb idarəetmə modeli;

Psixologiya -Temperament və onun tipləri.

Dərslərin müşahidəsi zamanı qrup işləri təşkil olunmuşdur. Qrup işlərinin sonunda tələbələrin bir-birini qiymətləndirməsi məqsədilə fikir və rəyləri öyrənildi. Lakin dəqiq meyarlar təqdim edilmədiyi üçün təhsilalanlarda özünüqiymətləndirmə bacarığının formalaşmasını təmin etmirdi.

### 7.6. Təhsil proqramı üzrə qiymətləndirmədə informasiya kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə vəziyyəti

Sahə baxışı zamanı təhsil proqramı üzrə qiymətləndirmədə informasiya kommunikasiya texnologiyalarının nailiyyətlərindən qismən istifadə olunması bildirilmişdir. Özünütəhlil Hesabatında bu məqam öz əksini tapmışdır. Tələbələrlə aparılmış müsahibələrə əsaslanaraq belə qənaətə gəlinmişdir ki, filial daha çox təhsilin təkmilləşdirilməsi məqsədi ilə MOODLE TİS (Tədrisin İdarəolunması Sistemi) platformasından istifadə edir. MOODLE-ın istifadəsi tələbələrə tapşırıqların istənilən vaxt əlçatan olması, tədris mühitinin asanlıqla təşkilini, tədrisdə vaxt itkisinin qarşısının alınması, məsafədən səmərəli tədris mühitinin formalaşması kimi bir sıra üstünlüklər qazandırır. Verilən məlumatlar Özünütəhlil Hesabatında əksini tapmışdır.

### 7.7. Təhsil proqramı üzrə sağlamlıq imkanları məhdud şəxslərə münasibətdə xüsusi qiymətləndirmə üsullarından istifadə vəziyyəti

Filialda İnklüziv Təhsil Mərkəzi fəaliyyət göstərir. Lakin təhsil proqramı üzrə sağlamlıq imkanları məhdud şəxslərə münasibətdə xüsusi qiymətləndirmə üsulları hazırlanmamışdır.

### 7.8. Təhsil proqramı üzrə cari və aralıq qiymətləndirmələrin müvafiq fənlərin spesifikliyi nəzərə alınaraq şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsipləri əsasında təşkil olunması vəziyyəti

Filialda təhsil proqramı üzrə müvafiq fənlərin spesifikliyi nəzərə alınaraq cari və aralıq qiymətləndirmədə şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsiplərinin gözlənilməsi haqqında məlumat verilmişdir. Sahə baxışı zamanı müəyyənləşdirilmişdir ki, tədrisin hər bir növü üzrə ayrı-ayrılıqda seminar (məşğələ) dərslərində frontal sorğular, kollokviumlar, praktik məsələlərin həlli və s. bu kimi müxtəlif formalı yoxlamalar əsasında bilik səviyyəsi, laboratoriya işinin yerinə yetirilməsi, sərbəst işlərin qiymətləndirilməsi cari və aralıq qiymətləndirmə vasitəsi ilə həyata keçirilir. Özünütəhlil Hesabatında və müvafiq sənədlərdə (təqdim olunan sillabuslarda) bu məqam əksini tapmışdır.

### 7.9. Təhsil proqramı üzrə Yekun Dövlət Qiymətləndirilməsinin təşkilinin sahə üzrə tənzimləyici hüquqi sənədlərə uyğunluğu vəziyyəti (yekun dövlət imtahanı və/ və ya buraxılış işi və dissertasiya işinin müdafiəsinin təşkili)

Filialda təhsil proqramı üzrə Yekun Dövlət Qiymətləndirilməsinin (yekun dövlət imtahanı və ya buraxılış işi) müvafiq qaydalara uyğun keçirildiyi bildirilmişdir. Özünütəhlil hesabatında əksini tapan qaydalar isə aşağıdakı sənədlərə əsasən həyata keçirilir.

AR NK-nın 2010-cu il 23 aprel tarixli 75 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil pilləsinin dövlət standartı və proqramı";

AR TN-nin 27.01.1997-ci il tarixli 54 saylı əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavr pilləsində dövlət attestasiyası haqqında Əsasnamə";

"ADPU-da bakalavriat səviyyəsində tələbələrin dövlət attestasiyası haqqında Qaydalar".

Təhsil proqramı üzrə buraxılış işlərinbin hqazırlanması və müdafiəsi 15.10.2015-ci ildə təsdiqq olumuş tədris planına əsasən həyata keçirilir.
Buraxılış işi üçün mövzular kafedralar tərəfindən müəyyənşdirilir və tələbələrin seçiminə verilir.

18.09.2020-ci ildə təsdiq olunmuş tədris planına əsqasən bakalavriat səviyyəsində buraxılış işlərinin yazılması və müdafiəsi ləğv olunmuşdur.

## 7.10. Təhsil proqramı üzrə bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə təhlillərin aparılması, proseslərin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti

Kafedra müdirləri, dekan, keyfiyyətin təminatı şöbəsinin müdiri ilə müsahibə zamanı qeyd olunmuşdur ki, təhsil proqramı üzrə bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə müəyyən iş təşkil olunur, keyfiyyət təminatı şöbəsi tərəfindən tələbələr arasında sorğular təşkil olunur, dekanlıq və müvafiq kafedralarda müzakirələr aparılır. Sahə baxışı zamanı müəyyən olmuşdur ki, filialda fəaliyyət göstərən kafedralarda açıq dərslər, sillabuslarda qiymətləndirmə meyarlarının əks olunması, imtanan nəticələrinin və qiymətləndirmə üsulları ("Sosial və pedaqoji elmlər" kafedrasının 06.12.2021-ci il tarixli iclasının 4 saylı; 12.09.2022-ci il tarixli iclasının 1 saylı; 22.05.2023-cü il tarixli iclasının 8 saylı; "Riyaziyyat və kompüter elmləri" kafedrasının 20.12.2022-ci il tarixli; 30.05.2023-cü il tarixli; "Dil-ədəbiyyat və onların tədrisi texnologiyası" kafedrasının 14.10.2022-ci il tarixli; 14.02.2023-cü il tarixli; 11.07.2023-cü il tarixli protokollarından çıxarış) kimi məsələlər müzakirə olunur. Müzakirələrdə Tədris və elmi işlər üzrə direktor müavini, Sosial və humanitar məsələlər üzrə direktor müavini, Pedaqoji fakültənin dekanı, Tədris şöbəsinin müdiri iştirak ediblər.

Bununla yanaşı, kafedralar tərəfindən təqdim olunmuş hesabatlarda ("Riyaziyyat və kompüter elmləri" kafedrasının İbtidai sinif müəllimliyi ixtisası üzrə 2018-2023-cü tədris illərinə dair hesabat, "Dil-ədəbiyyat və onların tədrisi texnologiyası" kafedrasının İbtidai sinif müəllimliyi ixtisası üzrə 2018-2023-cü tədris illərinə dair hesabatı, "Sosial və xüsusi fənlər" kafedrasının İbtidai sinif müəllimliyi ixtisası üzrə 2018-2023-cü tədris illərinə dair hesabat) müvafiq tədris illəri üzrə "İbtidai sinif müəllimliyi" ixtisası üzrə yaz və payız imtahan

sessiyalarının təhlilinin aparılması haqqında məlumat yer almışdır. Təhlillərdə kafedralar üzrə keçirilən imtahanların sayı, müvəffəqiyyət və keyfiyyət göstəriciləri faizlə qeyd olunmuşdur.

Bununla yanaşı, Təhsil proqramı üzrə təhsilalanların proqram mənimsəmə nəticələri də təhlil olunmuşdur. Bu haqda məlumat "Daxili keyfiyyət təminatı üzrə müəssisənin fəaliyyətinə dair illik hesabatı"nda yer almışdır. təqdim olunan sənəddə kurslar və qruplar üzrə tələbələrin sayı, imtahanda iştirak edənlərin sayı, imtahanları müvəffəqiyyətlə verənlərin sayı, akademik borcu olanların sayı, iştirak etməyənlərin sayı, müvəffəqiyyət və keyifiyyət göstəriciləri (faizlə) qeyd olunmuşdur.

Lakin istiqamət üzrə proseslərin izlənilməsi və təkmilləşdirilməsinə dair sistemli fəaliyyətin tənzimlənməsi təmin edilməlidir.

### 7.11. Təhsil proqramı üzrə təhsil səviyyəsinin bitirilməsi qaydalarının və şərtlərinin sadə, aydın və başa düşülən formada olması və tələbələr üçün əlçatan olması

Filialda təhsil proqramı üzrə təhsil səviyyəsinin bitirilməsi qaydalarının və şərtlərinin sadə, aydın və başadüşülən formada və tələbələrə əlçatan olması üçün müvafiq işlər görüldüyü bildirilmişdir. Filialda keçirilən müsahibə zamanı tələbələr bildirmişlər ki, hər il birinci kurs tələbələri ilə görüşlər keçirilir, həmin görüşlərdə onlara daxili nizam-intizam qaydaları, tədrisin kredit sistemi ilə təşkili qaydaları, fərdi iş planlarının hazırlanması, akademik kredit borcu yaranma səbəbləri, qiymətləndirmə, imtahan sessiyasının gedişatı, hüquq və vəzifələri barədə məlumat verilir. Bununla yanaşı filialın rəsmi saytında hüquqi normativ sənədlərin linkləri verilmişdir.

### 7.12. Təhsil proqramı üzrə təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədinin və ya təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə müavafiq arayışın verilməsinin qanunvericiliyin tələblərinə uyğunluğu

Sahə baxışı zamanı buraxılış Yekun Dövlət Attestasiyası keçirildikdən sonra Dövlət Attestasiya Komissiyasının hesabatına əsasən məzunlar barədə zəruri məlumatların təqdimat formasında ADPU-ya göndərilməsi, həmçinin diplom və əlavələrin ADPU-da müvafiq qaydalara uyğun olaraq hazırlanması, məzunlara təqdim edilməsi üçün filiala gətirilməsi və qediyyat kitabında qeyd olunduqdan sonra məzunlara çatdırılması bildirilmişdir. Bu məlumat özünütəhlil hesabatında da əksini tapmışdır. Filialda təhsil səviyyəsini uğurla başa vura bilməyən tələbələrə arayışlar AR NK-nın 21.01.2010-cu il tarixli 12 nömrəli qərarı ilə təsdiq edilmiş "Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi Qaydası"na uyğun olaraq verilir.

## 8.TƏHSİL PROQRAMINA CƏLB OLUNAN PROFESSOR-MÜƏLLİM HEYƏTİ

### 8.1. Təhsil proqramı üzrə akademik heyətin işə qəbulu, yüksəliş və digər vəzifəyə təyinatın şəffaf və ictimaiyyət üçün əlçatanlığının təmin olunması vəziyyəti

Filiala səfər zamanı pedaqoji heyətlə, kafedra rəhbərləri ilə müsahibə əsnasında, eləcə də səfərdən öncə tanış olduğumuz sənədlər və Özünütəhlil Hesabatına görə, Filialda akademik heyətin əmək müqavilələrinin bağlanılması və xitam verilməsi, əsasən, mövcud qanunvericiliyə, AR Əmək Məcəlləsinin tələblərinə, AR Təhsil Nazirliyinin Kollegiyasının 2017-ci il 15 noyabr tarixli 5/5 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları”na, 1996-cı il 7 avqust tarixli 401 nömrəli əmrinə (Əlavə 1), “Ali təhsil müəssisələrində professor-müəllim və kafedra müdiri vəzifələrinin tutulması qaydaları haqqında Əsasnamə”yə və Filialın əsasnaməsinə uyğun olaraq həyata keçirilir. Yüksək ixtisaslı kadr potensialının təmin edilməsi, ixtisaslı mütəxəssislərin işə cəlb edilməsi, şəffaflığı və obyektivliyi təmin etmək məqsədilə 5 nəfərdən ibarət “Filialda idarəetmə strukturunun optimallaşdırılması və insan resurslarının idarə olunmasında obyektivliyin və şəffaflığın təmin edilməsi komissiyası” fəaliyyət göstərir (Elmi Şuranın 23 iyun 2023-cü il tarixli 10 nömrəli iclasının qərarı). Şuranın fəaliyyəti protokollarla öz təsdiqini tapdı.Təhsil proqramı üzrə akademik heyətin sayı ümumi dərs yükünə əsasən formalaşdırılır. Tətbiq edilən yanaşma ictimaiyyət üçün əlçatandır. Yaranan vakansiyanın ilk növbədə daxili resurslar hesabına doldurulması prioritet kimi nəzərə alınır. Pedaqoji fakültənin dekanı, direktor müavinlərindən biri, kafedra müdirləri Filialda müəllim kimi işləmiş, sonradan müxtəlif vəzifələrə təyin edilmiş və ya seçilmişlər.

Pedaqoji fakültə dekanının elmi dərəcəsi olmadığı halda bu vəzifəyə təyin edilməsi və uzun müddət keçməsinə baxmayaraq, elmi dərəcəsiz bu vəzifədə çalışması qaydadan kənaraçıxma kimi dəyərləndirildi və Filial rəhbərliyinə bildirildi. Bu məqam institusional akkreditasiya zamanı da aşkarlanıb və hesabatda qeyd edilib.

### 8.2. Təhsil proqramı üzrə akademik heyətin pedaqoji səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarlarının mövcudluğu vəziyyəti

Proqram üzrə akademik heyətin pedaqoji səriştələrinin yüksəldilməsi məqsədilə stimullaşdırıcı tədbirlərin və müvafiq meyarların mövcudluğunun monitorinqi prosesində heyətlə aparılan müsahibələr zamanı müvafiq suallar verildi. Filial direktoru, Keyfiyyət təminatı şöbəsinin rəhbəri, baş mühasib sualları ayrı-ayrılıqda cavablandırsalar da, nəticələr eyni oldu. Bu məqsədlə Filialda reytinq qiymətləndirilməsi aparılır. Keyfiyyət təminatı şöbəsinin apardığı monitorinq və sorğular da reytinqin meyarlarına daxildir. Hər tədris ili təşkil edilən reytinq qiymətləndirilməsinə əsasən hər kafedra əməkdaşlarının 20%-nin rəğbətləndirilməsi təmin edilir. Sənədlərdən görünür ki, son 2 ildə reytinq qiymətləndirilməsinin nəticələrinə görə Proqram üzrə 5 əməkdaşın əməkhaqqına bir il müddətində diferensiallaşdırılmış əlavələr edilmişdir. Bu məqam müsahibələrdə müəllimlər tərəfindən də ifadə edildi. Elmi Şuranın qərarı ilə beynəlxalq elmi jurnallarda məqaləsi çap olunan müəllimlərə pul mükafatı təsis edilmişdir

(sənədlərdə təsdiq olundu). Eyni zamanda, əməkdaşlar Filial rəhbərliyi və HİK tərəfindən yubileylər və digər əlamətdar günlər münasibəti ilə Fəxri fərman və pul mükafatları ilə mükafatlandırılırlar. HİK xətti ilə Covid-19 pandemiyası dövründə xəstəliyə yoluxmuş bir neçə əməkdaşa maddi yardım edildiyi də bildirildi.

## 8.3. Təhsil proqramı üzrə akademik heyətə interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlərin keçirilməsi vəziyyəti

Meyar üzrə müvafiq işlərin görülməsi və pedaqoji heyətin səriştəliliyinin artırılması Filialın 1918-2022-ci illər üçün nəzərdə tutulmuş strateji planında (Strateji plan, Tədris və ümumi idarəçilik işləri sahəsi, maddə 22; Elm və İnnovasiyalar sahəsi, maddə 21) öz əksini tapmışdır. Yerində baxış zamanı akademik heyətin yerli və beynəlxalq konfranslarda, simpozium və təlimlərdə iştirakını göstərən sənədlərdən (təlimlərin adı, keçirilmə vaxtı və müddəti, iştirakçıların adlı siyahısı), eləcə də sertifikatların surətlərindən ibarət qovluqlar Komissiya üzvlərinə təqdim olundu. Müsahibələr zamanı Covid-19 pandemiyası səbəbilə 2020-ci ilin yaz aylarında həm ADPU tərəfindən təşkil edilmiş, həm də daxili imkanlar hesabına İKT sahəsində intensiv təlimlər nəticəsində, demək olar ki, bütün heyətin müvafiq səriştəliliyində ciddi irəliləyiş olmuşdur.

"İKT bacarıqları", "Teams platformasında tədrisin təşkili" "İnternet imkanlarının onlayn tədrisə tətbiqi", "Ümumtəhsil müəssisələrində STEAM fənninin tədrisinin təkmilləşdirilməsi istiqaməti", "Dərs prosesində 5E və 7E modellərinin tətbiqi", "Microsoft Excel proqramının tədris sənədləşməsində istifadə imkanları", "Moodle LMS" və s. professor-müəllim heyəti üçün təşkil edilmiş təlimlərdəndir.

Cədvəl 8.3. 2018-2023-ci illər üzrə akademik heyətin təlimlərdə iştirak vəziyyəti

| S/s | Tədris ili | Proqram üzrə akademik heyətin ümumi sayı | Təlimdə iştirak edənlərin sayı | Təlimdə iştirak edənlərin faizlə göstəricisi |
|---|---|---|---|---|
| **1** | 2018/2019 | 25 | 8 | 32% |
| **2** | 2019/2020 | 23 | 11 | 47% |
| **3** | 2020/2021 | 26 | 13 | 50% |
| **4** | 2021/2022 | 26 | 15 | 58% |
| **5** | 2022/2023 | 28 | 16 | 57% |

| Cəmi | 5 il | 128 | 63 | 49% |
|---|---|---|---|---|

## 8.4. Təhsil proqramı üzrə akademik heyətə öz ixtisas sahələrinə aid ixtisasartırma və digər təlim kurslarında iştirakı vəziyyəti

Akademik heyətin ixtisas sahələrinə uyğun peşəkar inkişaf fəaliyyətlərinə cəlb olunma vəziyyətinə baxış məqsədilə həm müsahibələr zamanı, həm də sənədlərlə tanışlıq prosesində müvafiq meyar üzrə vəziyyət qənaətbəxş hesab edilmişdir. Belə ki, sahə baxışı zamanı Komissiyaya 2018-2023-cü illər üzrə təlimlərdə iştirak etmiş professor-müəllim heyətinin adlı siyahılarının daxil olduğu hesabatlar, təlimlərdən əldə edilmiş sertifikatların surətləri təqdim olundu. Sənədlərdən görünür ki, bütün kafedralar üzrə, demək olar ki, müəllimlərin hər biri müxtəlif ixtisaslara uyğun bir sıra təlim və ixtisasartırma kurslarına cəlb edilmişdir. Xarici dil biliyi olan kadrların beynəlxalq təlimlərdə iştirakı daha intensiv olmuşdur. Komissiyaya sahə baxışından öncə və proses zamanı təqdim olunan sənədlərlə akademik heyətin müvafiq peşəkar inkişaf fəaliyyətlərində iştirakı təsdiqləndi.
Dərslərin müşahidəsi aparılarkən bəzi auditoriyalarda bu təlimlərdə qazanılmış bilik və bacarıqların tətbiqi görünsə də, ümumilikdə, bu istiqamətdə təkmilləşməyə ehtiyac var.

Akademik heyətin öz ixtisaslarına uyğun iştirak etdiyi bəzi təlim və kursların adları tərəfimizdən Yekun Hesabata daxil edilir: “Kurikulumun əsasları” “Pedaqogika və metodika”, “İnklüziv təhsil”, “Fərqli fərdlər”, “Ümumtəhsil müəssisələrində STEAM fənninin tədrisinin təkmilləşdirilməsi”, “Xarici keyfiyyət təminatı”, “Gəlin uğura Excel çərçivəsindən baxaq”, “Excel proqramının tədris sənədləşməsində istifadə imkanları”, “Elmi data-bazalar”, “Layihələrin maliyyələşmə imkanları”, “Maliyyə savadlılığı”, “Panik atak” və s. yerli təlim və seminarlar.

***2020-2023-cü illərdə bir sıra müəllimlər tədris ili ərzində bir neçə təlimdə iştirak etdiyi üçün təlimlərdə içtirak sayı akademik heyət sayından daha çoxdur.**

Cədvəl 8.4. 2018-2023-cü illər üzrə akademik heyətin öz ixtisaslarına uyğun təlimlərdə iştirak vəziyyəti

| S/s | Tədris illəri | Proqram üzrə akademik heyətin sayı | Təlimlərdə iştirak sayı |
|---|---|---|---|
| **1** | 2018/2019 | 25 | 23 |
| **2** | 2019/2020 | 23 | 22 |
| **3** | 2020/2021 | 26 | 30 |
| **4** | 2021/2022 | 26 | 59 |

| | | | | |
|---|---|---|---|---|
| **5** | 2022/2023 | 28 | 56 | |
| **Cəmi** | **5 il** | **128** | **190** | |

## 8.5. Təhsil proqramı üzrə akademik heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirakı vəziyyəti

Komissiyaya təqdim olunan sənədlər (təlimlərin adları, iştirakçıların adlı siyahısı, sertifikatlar) və sahə baxışı zamanı aparılmış müsahibələr nəticəsində gəlinən qənaət odur ki, Filialda təhsil proqramı üzrə akademik heyətin birləşdiyi kafedraların, demək olar ki, hamısında kadrların peşəkar inkişafı məqsədilə beynəlxalq səviyyəli kurslarda, təlimlərdə, simpozium və konfranslarda iştirakı, əsasən, təmin edilir.

UNİCEF-in xətti ilə, ADPU və digər təşkilatlar tərəfindən təşkil edilmiş akademik heyətin bilik və bacarıqlarının artırılmasına xidmət edən peşəkar inkişaf fəaliyyətlərinə, demək olar ki, bütün heyət üzvləri cəlb olunub. Bəzi iştiraklar isə məhz kadrların özlərinin təşəbbüsü ilə baş tutmuşdur. Xüsusilə, xarici dil və İKT bacarıqları qənaətbəxş olan əməkdaşlar bu sahədə aktiv olmuşlar.

Pedaqoji heyət üzvləri ilə müsahibələr zamanı əldə olunmuş bilik və bacarıqların bir-biri ilə əməkdaşlıq fonunda mübadiləsi olduğu da müşahidə olundu.

Cədvəl 8.5. 2018-2023-cü illər üzrə akademik heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirak vəziyyəti

| S/s | Tədris ili | Proqram üzrə akademik heyətin sayı | Beynəlxalq təlimlərdə iştirak sayı |
|---|---|---|---|
| **1** | 2018/2019 | 25 | - |
| **2** | 2019/2020 | 23 | 9 |
| **3** | 2020/2021 | 26 | 2 |
| **4** | 2021/2022 | 26 | 8 |
| **5** | 2022/2023 | 28 | 4 |
| **Cəmi:** | **5 il** | **128** | **23** |

## 8.6. Təhsil proqramı üzrə akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi sisteminin mövcudluğu vəziyyəti

Özünütəhlil hesabatında müvafiq meyara uyğun qeydlər, protokollar, sahə baxışı zamanı müsahibə və təqdim olunan sənədlər (sorğuların aparıldığını təsdiq edən) əsasında təsbit olundu ki, Filialda təhsil proqramı üzrə akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi sistemi mövcuddur. Müvafiq proses (əsasən monitorinqlər) 12 sentyabr 2022-ci il (protokol №1) Elmi şurasında təsdiq olunmuş qiymətləndirmə meyarlarına əsaslanaraq aparılır. Monitorinq proseslərində pedaqoji fakültə, tədris şöbəsi və kafedralar iştirak edir və nəticələr keyfiyyət komissiyasının iclasında müzakirə edilir. Kafedra müdirlərinin iştirakı ilə mütəmadi olaraq açıq dərslərin təşkil olunduğu və nəticələrin kafedradaxili iclaslarda müzakirə edilərək protokollaşdırıldığı sənədlərlə təsdiqini tapdı.

Proses ümumən qənaətbəxş olsa da, qiymətləndirilmə meyarlarının (dərslərin müşahidəsi zamanı istifadə olunan meyarlar daxil olmaqla) təkmilləşdirilməsinə ehtiyac olduğu təsbit edildi.

## 8.7. Təhsil proqramı üzrə ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsündə dürüst və şəffaf meyarların mövcud olması vəziyyəti

Dərs yükü normaları AR NK-nın 24 noyabr 2010-cu il tarixli 215 nömrəli qərarı ilə təsdiq edilmiş “Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında” Qərarına əsasən yerinə yetirilir. Təhsil proqramı üzrə ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükü tam ştat vahidi 500-550 saatdan az olmayaraq, 0,5 ştat və əvəzçi yarım ştat vahidi 250-dən çox, kənardan cəlb olunan saathesabı akademik heyətə isə 240 saatdan çox olmayaraq təyin edilir. Dərs bölgüsü zamanı elmi dərəcəli professor-müəllim heyətinə mühazirələrin, digər müəllimlərə isə seminar, praktik məşğələlərin verilməsi diqqət mərkəzində saxlanılır. Lakin istisna hallarda kifayət qədər pedaqoji stajı, elmi fəaliyyəti nəzərə alınmaqla  elmi dərəcəsi olmayan müəllimlərə də mühazirələr verilir. Komissiyaya bildirildi ki, müəllimlər dərs yükü proqnozu ilə hər ilin may ayında tanış olur, sentyabr ayının əvvəlində isə dərs yükləri təsdiq olunur, bir nüsxəsi müəllimə təqdim edilir.

Kənardan cəlb olunan kadrlar filialda az müddət keçirdikləri üçün (hətta bəzi hallarda həftədə yalnız bir gün) dərslər eyni günə yığıla bilir. Eyni zamanda sözügedən müəllimlərlə məsləhət saatları da effektiv təşkil oluna bilmir.

## 8.8. Təhsil proqramı üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti vəziyyəti (1/15)

Filialın “İbtidai sinif müəllimliyi” proqramında dörd kafedra üzrə 24 pedaqoji kadr tədris aparır. Onlardan doqquz nəfərinin digər vəzifə öhdəlikləri olduğu üçün pedaqoji fəaliyyət öhdəlikləri yarımştat təyin olunub, iki kadr əvəzçi yarımştat, dörd kadr isə saathesabı müəllim kimi dəvət olunub.

Son 5 ildə ibtidai sinif müəllimliyi ixtisası üzrə təhsilalanların sayı artan xətt üzrə dəyişmişdir. 2022-2023-cü tədris ili üzrə proqramda 175 tələbə təhsil alıb.

Cədvəl 8.8. 2018-2023-cü illər üzrə akademik heyətin tələbə sayına nisbəti vəziyyəti

| № | İllər üzrə | Akademik heyətin sayı | Tələbələrin sayı | Nisbət |
|---|---|---|---|---|
| 1 | 2018/2019 | 25 | 110 | 1/4 |
| 2 | 2019/2020 | 23 | 109 | 1/4 |
| 3 | 2020/2021 | 26 | 131 | 1/5 |
| 4 | 2021/2022 | 26 | 159 | 1/6 |
| 5 | 2022/2023 | 28 | 175 | 1/6 |
| Cəmi* | 5 il | 128 | 684 | 1/5 |

*Proqramda tədrislə məşğul olan professor-müəllim heyətinin paralel olaraq digər proqramlardan kifayət qədər dərs yükləri var. Digər bir məqam isə hesabatın 8.9-da vurğulandığı kimi, bir sıra müəllimlərin proqramda saathesabı və ya yarımştat-əvəzçi müəllim kimi tədris etməsidir. Bu səbəbdən cədvəldə verilmiş statistika əsl reallığı əks etdirə bilmir. Qeyd edilən məqamlar nəzərə alındıqda aydın olur ki, professor-müəllim heyətinin tələbə sayına nisbəti son 5 tədris ilində 1/8 nisbətindən 1/15 nisbətinə dəyişmişdir.

## 8.9. Təhsil proqramı üzrə tədris prosesində iştirak edən professor-müəllim heyətinin 70 faizindən çoxunun əsas iş yeri müvafiq ATM olması vəziyyəti

Təhsil proqramı üzrə tədris prosesinə cəlb olunmuş professor-müəllim heyəti əsasən Filialın mövcud kadr potensialına əsaslanır. Tədris proqramı üzrə 1 fakültə, 4 kafedra fəaliyyət göstərir. Kafedraların, demək olar ki, hamısında kənardan cəlb edilmiş pedaqoji kadr olsa da, üstünlük əsas iş yeri Filialın özü olan heyətdədir. Bu halda, tələbələrin məsləhət saatları daha keyfiyyətli təmin oluna bilir, eyni zamanda müvafiq kadrın tədrisin effektiv təşkilinə töhfəsi də qənaətbəxş olur.

Cədvəl 8.9. 2018-2023-cü illər üzrə tədris prosesində iştirak edən və əsas iş yeri Filial olan professor-müəllim heyətinin proqram üzrə pedaqoji kadrların ümumi sayına nisbəti vəziyyəti

| № | İllər üzrə | Akademik heyətin sayı | Əsas iş yerinin Filial olması | Faizlə |
|---|---|---|---|---|

| | | | | |
|---|---|---|---|---|
| **1** | **2018/2019** | 25 | 17 | 68% |
| **2** | **2019/2020** | 23 | 17 | 74% |
| **3** | **2020/2021** | 23 | 19 | 73% |
| **4** | **2021/2022** | 23 | 20 | 77% |
| **5** | **2022/ 2023** | 23 | 19 | 68% |
| **Cəmi** | **5 il** | **23** | **92** | **72%** |

## 8.10. Təhsil proqramı üzrə kənardan cəlb edilən professor-müəllim heyətinin zəruriliyi

ATM-in mərkəzdən kənarda yerləşməsi regionda elmi dərəcəsi olan pedaqoji kadrların kifayət qədər olmamasına gətirib çıxarır. Təhsil proqramı üzrə dərs yükünün çoxluğu da nəzərə alınsa, tədrisin effektiv təşkili məqsədilə kənardan professor-müəllim heyətinin dəvət olunmasına zərurət yaranır.

Cədvəl 8.10. 2018-2023-ci illər üzrə kənardan cəlb edilən professor-müəllim heyətinin proqram üzrə pedaqoji kadrların ümumi sayına nisbəti vəziyyəti

| № | İllər üzrə | Ümumi say | Dəvət olunan pedaqoji kadr sayı | Faiz nisbəti |
|---|---|---|---|---|
| **1** | 2018/2019 | 25 | 7 | 28% |
| **2** | 2019/2020 | 23 | 6 | 26% |
| **3** | 2020/2021 | 26 | 7 | 27% |
| **4** | 2021/2022 | 26 | 5 | 19% |
| **5** | 2022/2023 | 28 | 9 | 32% |
| **Cəmi** | 5 il | 128 | 34 | 27% |

## 8.11. Akademik heyətə qiymətləndirmə meyarları əsasında differensiallaşdırılmış əməkhaqqı sisteminin tətbiqi vəziyyəti

Özünütəhlil hesabatında qeyd olunur ki, akademik heyətə (daimi əsaslarla çalışan) qiymətləndirmə meyarları əsasında diferensiallaşdırılmış əməkhaqqı sistemi tətbiq olunur.

Filiala səfər zamanı müvafiq sənədlərə baxış keçirilərkən və baş mühasiblə müsahibə zamanı hesabatda qeyd olunan fikirlər öz təsdiqini tapmışdır.

Cədvəl 8.11. Proqram üzrə reytinq qiymətləndirmədə rəğbətləndirməyə düşən akademik heyət haqqında son beş il üçün məlumat

| S/s | İllər | Reytinqdə iştirak edənlər | Rəğbətləndirməyə düşənlər | |
|---|---|---|---|---|
| | | | Rəqəmlə | Faizlə |
| 1 | 2018/2019 | - | - | - |
| 2 | 2019/2020 | - | - | - |
| 3 | 2020/2021 | - | - | - |
| 4 | 2021/2022 | 35 | 2 | 6% |
| 5 | 2022/2023 | 30 | 3 | 10% |

### 8.12. Təhsil proqramı üzrə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış və / və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş professor-müəllim heyətinin mövcudluğu vəziyyəti

Filialda müvafiq meyara uyğun pedaqoji kadr fəaliyyət göstərmir. Direktorla müsahibə zamanı bu istiqamətdə işlərin görülməsi və Filiala nüfuzlu xarici ali təhsil müəssisələrindən məzun olmuş kadrların cəlb olunması planlaşdırılır. Bu məqsədlə, ADPU-nun Beynəlxalq əlaqələr şöbəsi ilə məsləhətləşmələr aparılır.

## 9. TƏHSİL PROQRAMI ÜZRƏ TƏLƏBƏYÖNÜMLÜ TƏDRİS

### 9.1. Təhsil proqramı üzrə təhsilalanın fərdi tədris planının tərtib edilməsində iştirak etməsi

Müsahibə iştirakçıları (universitetin direktoru, prorektorlar, müəllimlər, dekanlar və tələbələr) tələbənin fərdi tədris planının müəyyən olunmuş forma (Forma 4) üzrə akademik məsləhətçinin (tyutor) köməyindən istifadə etməklə və fənlərin prerekvizitliyi gözlənilməklə, onun özü tərəfindən tərtib edildiyini təsdiq etdilər (təqdim edilmiş məlumat sənədlərlə (fərdi iş planları) öz təsdiqini tapır).

### 9.2. Təhsil proqramı üzrə tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənlərin tələbələr tərəfindən seçiminin sərbəstliyinin təmin edilməsi

Müsahibədə iştirak edənlər (universitetin direktoru, prorektorlar, müəllimlər, dekanlar və tələbələr) seçmə fənləri fərdi tədris planlarına daxil edərkən onların tələbələr tərəfindən sərbəst olaraq seçildiyini təsdiq etdilər. Fənləri seçmə zamanı tələbələrin tyutorların məsləhətlərindən istifadə etdikləri də təsdiq olundu (təqdim edilmiş məlumat sənədlərlə (seçmə fənləri seçmək üçün xüsusi cədvəl) öz təsdiqini tapır).

### 9.3 Təhsil proqramı üzrə təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorların) tələbələr tərəfindən Bolonya prinsipinə uyğun olaraq seçiminin sərbəstliyinin təmin edilməsi fərdi tədris planının tərtib edilməsində iştirak etməsi

Özünütəhlil hesabatında və həmçinin müsahibələr zamanı (universitetin direktoru və prorektorlar) qeyd olundu ki, təhsil proqramı üzrə ştatda olan akademik məsləhətçilərin sayı çox olmadığından, seçimdə tələbələrə sərbəstlik verilə bilmir.

Özünütəhlil hesabatında qeyd olunmasa da, müsahibələr zamanı məlum oldu ki, təhsilverənlərin də seçimi sərbəst deyil.

### 9.4. Təhsil proqramı üzrə tələbə və məzunlar arasında keçirilmiş rəy sorğusunun istiqamətləri, intensivliyi və səmərəliliyinin inkişaf dinamikası

Müsahibə zamanı iştirakçılar tələbə (müəllimlər, prorektorlar və tələbələr) və məzunlar arasında tez-tez sorğuların keçirildiyini qeyd etdilər. Özünütəhlil hesabatında ümumilikdə 15 sorğunun keçirilməsi vurğulanıb. İştirakçılar (həm tələbələr və həm də keyfiyyətin təminatı şöbəsinin müdiri) sorğuların müxtəlif formatda olduğunu bildiriblər: şifahi, anket vərəqi və onlayn (Google form) formatında, respondentlərin anonimlik və konfidensiallıq şərtləri qorunmaqla. Bu məlumatlar özünütəhlil hesabatında da təsdiqlənir.

Müsahibələrdə sorğuların müxtəlif istiqamətləri də vurğulanıb və bu, özünütəhlil hesabatında da öz əksini tapıb. Sorğular dərs mühiti, kursun strukturu və məzmunu, müəllim heyəti və dərsdənkənar tələbə xidməti mövzularını əhatə edir.

Tələbələr arasında keçirilən sorğular:

- Filialın ümumi fəaliyyətinin qiymətləndirilməsi
- Fənlər üzrə məmnunluq
- Tələbələrin müəllimlərdən məmnunluğu

Məzunlar arasında keçirilən sorğular:

- Karyera xidmətlərindən məmnunluq
- Təhsil müddətində qazanılmış səriştələrdən məmnunluq
- Qazanılmış peşə kompetensiyalarının əmək bazarına uyğunluğu

Hər iki kontingent arasında keçirilmiş sorğular nəticəsində, tədris prosesinin

aşağıdakı cəhətləri faydalı hesab edilir:

- Dərslərin interaktiv və yenilikçi keçirilməsi
- Dərslərin praktiki və araşdırmayönümlü olması
- Tədrisin ənənəvi qaydada keçirilməməsi, fərdi və qrup işlərinin təşkil olunması
- Araşdırma mövzuları və kitab müzakirələri
- Fənlərin məzmununun işə qəbul imtahanlarının tələblərinə uyğunluğu
- Elmi izah və təcrübəyə əsaslanan məzmunun tədrisi

Tələbələr aşağıdakı cəhətləri səmərəli hesab etmirlər:

- Sərbəst işlərin olması
- Ənənəvi kollokvium sistemi
- Bəzi müəllimlərin mühazirələri ənənəvi qaydada aparması
- Mühazirə materiallarına aid tələbənin qeyd dəftərinin tələb edilməsi

**Qeyd:** Yuxarıdakı cəhətlərin tələbələr tərəfindən səmərəli hesab edilməməsinə baxmayaraq, aparılan müsahibələrdə tələbələr eyni problemləri təkrar-təkrar vurğuladılar. Sillabusların təhlili də bu məlumatı təstiqlədi. Əldə olunan məlumata əsaslanaraq, proqramların hazırlanması və tətbiqində tələbələrin rəy və fikirlərinin nəzərə alınmadığı öz təsdiqini tapdı.

**Qeyd:** Tələbə sorğularının hesabatlarını təhlil edərkən sorğuların yalnız 2021-2024 illəri əhatə edildiyi müəyyən olundu.

### 9.5. Təhsil proqramı üzrə tələbə və məzunların təklifləri əsasında tətbiq olunmuş yeniliklərin (qərarların) inkişaf dinamikası

Özünütəhlil hesabatında təhsil proqramı üzrə son beş ildə tələbə və məzunlarla keçirilən sorğuların nəticələri əsasında müəyyən olunmuş nöqsanların təhlili aparıldığı, onların aradan qaldırılması istiqamətində işlər görüldüyü qeyd olunub. Hesabatda tələbələr tərəfindən tədris prosesinin təkmilləşdirilməsi üçün bir sıra təkliflərin verilməsi də bildirilib:

- Müəyyən dərslərin daha çox praktik olaraq keçirilməsi; Müsahibə zamanı konkret olaraq hansı fənlərin daha praktiki olaraq keçirilməsi haqqında məlumat verilmədi. Sənədlərin təhlili zamanı da həmin məlumata rast gəlinmədi;
- Xarici təcrübənin detallı şəkildə nəzərdən keçirilməsi; Bu məlumat da heç bir sənəddə öz əksini tapmayıb;
- Müəllimlərin tələbələrdə dərsə qarşı motivasiya yaratmağa çalışması;

Özünütəhlil hesabatında aşağıdakı tədbirlərin tələbələrin təklifləri əsasında keçirilməsi qeyd olunmuşdur. Qeyd olunan təklifləri müsahibə zamanı iştirakçılar (filial direktoru, dekan, prorektorlar və tələbələr) bir daha təsdiqlədilər.

- Tələbələrin təklifləri əsasında filialda "Elektron lövhədən isitifadə bacarıqları" adlı təlimlər təşkil edilmişdir.
- İnternetin surətinin artırılması təkliflərinə müvafiq olaraq filial surətli optik internetlə təchiz olunmuşdur.

- Tələbələrin şifahi sorgularında verdikləri təklifə əsasən “Rəqəmsal bacarıqlar“ mövzusunda təlimlər keçirilib.

### 9.6. Təhsil proqramı üzrə tələbə rəylərinin (akademik heyət, xidmətlərin keyfiyyəti və ümumi məmnunluq səviyyəsi və s. haqqında) müxtəlif vasitələrlə sistemli şəkildə toplanması və qərarvermə proesesində istifadə edilməsi vəziyyəti

Müsahibə iştirakçıları (universitetin direktoru, prorektorlar, müəllimlər, dekanlar və tələbələr) tələbə rəylərinin sistemli şəkildə toplanması, təhlil olunması, aidiyyatı sahələr üzrə qruplaşdırılması, filial və fakültə Elmi şurasında müzakirə olunmasını bildirdi. Bu məlumat özünütəhlil hesabatında da əksini tapır.

Özünütəhlil hesabatında və eləcə də müsahibə zamanı iştirakçılar sorğuların nəticəsi olaraq aşağıdakı tədbirlərin görüldüyünü qeyd etdilər:

“Tədrisin səmərəli təşkili, yeməkxananın iş rejiminin təkmilləşdirilməsi, kitabxanada dərslik vəsaitinin sayının artırılması, dərsliklərin tələbəyə evə şəxsi istifadə üçün verilməsi və s.” (təqdim edilmiş məlumat sənədlərlə (rəy sorğularına əsasən) öz təsdiqini tapır).

### 9.7. Təhsil proqramı üzrə təhsilalanların şikayət və/və ya təklifləri üçün müxtəlif vasitə və mexanizmlərin mövcudluğu vəziyyəti

Müsahibə iştirakçıları (universitetin direktoru, prorektorlar, müəllimlər, dekanlar və tələbələr) təhsilalanların şikayət və təkliflərini filialın rəhbər heyətinin elektron poçtuna yazılı formada, direktora, fakültə və müvafiq struktur bölmələrinə birbaşa müraciət etməklə, tədris korpusunun birinci mərtəbəsində yerləşdirilmiş rəy və təkliflər qutusuna, eləcə də anonimliyi qorunmaq şərtilə sorğularda bildirdiklərini qeyd etdilər. Bu məlumat özünütəhlil hesabatında da öz əksini tapır.

### 9.8. Təhsil proqramı üzrə təhsilalanların inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən müvafiq kvalifikasiyalara sahib akademik məsləhətçilərin (tyutor) mövcudluğu vəziyyəti

Müsahibə zamanı iştirakçılar (universitetin direktoru, prorektorlar, müəllimlər, dekanlar və tələbələr) filialda təhsil proqramı üzrə təhsilalanların inkişafına nəzarət edən cəmi iki akademik tyutorun (tələbə sayından azdır) mövcudluğunu qeyd etdilər. Özünütəhlil hesabatında qeyd edildiyi kimi, həmin tyutorlar ali təhsilli və pedaqoji sahədə iş stajına malikdirlər.

### 9.9. Təhsil proqramı üzrə tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında müxtəlif vasitələrlə (üzbəüz, onlayn

**və s.) kommunikasiyanın həyata keçirilməsi vəziyyəti Təhsil proqramı üzrə təhsilalanın fərdi tədris planının tərtib edilməsində iştirak etməsi**

Müsahibə iştirakçıları (universitetin direktoru, prorektorlar, müəllimlər, dekanlar və tələbələr) təhsil proqramı üzrə tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında üzbəüz, onlayn (e-poçt, sosial şəbəkə profillərində votsap qeyd etmişdilər)) vasitəsilə kommunikasiya təşkil olunduğunu qeyd etdilər. Bu məlumat özünütəhlil hesabatında da öz əksini tapır.

Həmçinin müsahibə zamanı qeyd olundu ki, təhsilverənlər həftənin müvafiq günü tələbələrlə məsləhət saatları təşkil edirlər. Bu barədə qrafik hər fənnin sillabusunda öz əksini tapmışdır. Tələbələrin sərbəst olaraq həmin məsləhət saatlarında təhsilverənlərlə əlaqə saxlaya bildikləri qeyd olundu. Lakin sənədlərin təhlili zamanı müəyyən olundu ki, bütün kafedralar məsləhət saatlarını sillabuslarda qeyd etməyiblər. Yeganə fərqlənən kafedra-riyaziyyat kafedrasıdır. Həmin kafedranın müəllim heyəti məsləhət saatlarını qeyd edib.

Müsahibə zamanı həmçinin qeyd olundu ki, “Moodle TİS” platforması tələbələr və təhsilverənlər arasında kommunikasiya vasitəsi kimi istifadə olunur. Bu platformanın, əsasən, təhsilalanlara kurs materiallarının, çalışma və tapşırıqların əlçatan olmasında, tədris mühitinin asanlıqla təşkilində, tədrisdə vaxt itkisinin qarşısının alınmasında, məsafədən səmərəli tədris mühitinin formalaşmasında kömək olduğu qeyd edildi. Bu məlumat özünütəhlil hesabatında da öz əksini tapır.

### 9.10. Təhsil proqramı üzrə sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası meyarlarının tədris prosesində nəzərə alınması vəziyyəti

Müsahibə iştirakçıları (universitetin direktoru, prorektorlar, müəllimlər, dekanlar və tələbələr) cari ildə Filialda Təhsil proqramı üzrə sağlamlıq imkanları məhdud şəxslərin təhsil almadıqlarını qeyd etdilər.

Sağlamlıq imkanları məhdud şəxslər Filiala qəbul olunarsa, cəmiyyətə inteqrasiyası meyarlarının nəzərə alınmasının diqqət mərkəzində saxlana biləcəyini qeyd etdilər. Bu məlumat özünütəhlil hesabatında da öz əksini tapır.

### 9.11. Təhsil proqramı üzrə sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlığı vəziyyəti

Sahə baxışı zamanı təhsil proqramı üzrə sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlığı ilə əlaqədar olaraq şəraitin yaradılacağı qeyd olundu. Bu məlumat özünütəhlil hesabatında da öz əksini tapır. Hesabatda həmçinin müvafiq sənədlərin

mövcudluğu barədə məlumat qeyd olunmuşdur, lakin bu mövzu ilə əlaqədar heç bir sənəd tapılmadı.

## 10. TƏHSİL PROQRAMININ MONİTORİNQİ

### 10.1. Təhsil proqramlarının monitorinqi strategiyasının və fəaliyyət planının mövcudluğu

Sahə baxışı zamanı Filialda bu istiqamət üzrə müəyyən fəaliyyətlər icra olunması müşahidə olunmuşdur. Məsələn: kafedralarda Təhsil proqramı üzrə təlim nəticələri, fənn üzrə təlim nəticələri, sillabusların təhlili, qiymətləndirmə üsullarının müzakirəsi, ixtisas üzrə açıq dərslərin müzakirəsinə dair kafedraların təqdim etdiyi çıxarışlarda müvafiq qeydlər yer almışdır ("Sosial və pedaqoji elmlər" kafedrasının 06.12.2021-ci il tarixli iclasının 4 saylı; 12.09.2022-ci il tarixli iclasının 1 saylı; 22.05.2023-cü il tarixli iclasının 8 saylı; "Riyaziyyat və kompüter elmləri" kafedrasının 20.12.2022-ci il tarixli; 30.05.2023-cü il tarixli; "Dil-ədəbiyyat və onların tədrisi texnologiyası" kafedrasının 14.10.2022-ci il tarixli; 11.07.2023-cü il tarixli protokollarından çıxarış).

Sahə baxışı zamanı filialda fəaliyyət göstərən Keyfiyyət komissiyasının 2023/2024-cü tədris ili üçün Fəaliyyət planı təqdim edilmişdir. Planda filial üzrə şöbə tərəfindən aparılmış monitorinqlərin təhlili, dərs prosesində müasir və interaktiv təlim metodlarının, İKT tətbiqinin monitorinqi, keçirilmiş sorğuların təhlili, elmi fəaliyyət, kitabxana fondu və s.məsələlərin icrasına dair fəaliyyətlər həyatra keçirilmişdir.

Bununla yanaşı, 2022/2023-cü tədris ilində proqram məmnunluğu haqqında yazılı formada sorğu təşkil olunmuşdur.

20 dekabr 2021-ci il tarixində tələbələr arasında (yazılı) 8 meyardan ibarət imtahan sessiyası ilə bağlı məmnunluq sorğusu keçirilmişdir.

19 dekabr 2022-ci il tarixində tələbələr arasında keçirilən tədrisin keyfiyyəti və davranışla bağlı məmnunluq sorğusu keçirilmişdir.

23 may 2023-cü ildə tələbələr arasında akademik heyətin və tədrisin keyfiyyəti ilə bağlı məmnunluq sorğusu keçirilmişdir.

18 dekabr 2023-cü ildə tələbələr arasında tədrisin keyfiyyəti ilə bağlı məmnunluq sorğusu keçirilmişdir.

2023-2024-cü tədris ilinin fevral ayında tələbələr arasında Kitabxana və elektron resurslar şöbəsi ilə bağlı sorğu keçirilmişdir.

İndikator üzrə ayrı-ayrı strukturlar tərəfindən müəyyən fəaliyyət həyata keçirilsə də, sahə baxışı zamanı Təhsil proqramı üzrə monitorinqi strategiyası və fəaliyyət planı təqdim edilməmişdir.

## 10.2. Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət imkanlarının mövcudluğu

Filialda keyfiyyətin təminatı, kafedra müdirləri ilə müsahibə zamanı qeyd olunmuşdur ki, təlim nəticələrinin əldə olunması məsələsi kafedralarda müzakirə olunur. Keyfiyyətin təminatı şöbəsinin müdiri bildirmişdir ki, sillabuslarda qeyd olunan təlim nəticələri proqramın təlim nəticələri ilə uzlaşdırılır. Filialın Keyfiyyət Komissiyasının 04 iyul 2023-cü il tarixli iclasında (Protokol № 1 ) fənn sillabuslarının mövcudluğu, sillabuslarda təlim nəticələrinin əksini tapması, məsələsi müzakirə olunmuşdur.

Sahə baxışı zamanı "Sosial və pedaqoji elmlər" kafedrası (06.12.2021-ci il tarixli iclasının 4 saylı protokolundan çıxarış; 22.05.2023-cü il tarixli iclasının 8 saylı protokolundan çıxarış), "Riyaziyyat və kompüter elmləri" kafedrası (20.12.2022-ci il tarixli protokolundan çıxarış; 30.05.2023-cü il tarixli protokolundan çıxarış) təqdim etdiyi sənədlərdə müzakirə haqqında məlumat öz əksini tapmışdır. 2018-2023-cü tədris illəri üzrə təqdim edilmiş hesabatlarında təlim nəticələrinin reallaşmasına Dekanlıq, Keyfiyyətin təminatı şöbəsi və kafedralar tərəfindən nəzarətin olması, uyğun olmayan təlim nəticələrinin yeniləri ilə əvəz olunması qeyd olunub. Lakin konkret fənnlər üzrə hansı təlim nəticələrinin hansı prinsip əsasında dəyişdirilməsi və təlim nəticələrinin əldə edilməsinə nəzarətin təşkili forması haqqında məlumat təqdim olunmamışdır. İstiqamət üzrə sistemli fəaliyyətin tənzimlənməsi məqsədəuyğundur.

## 10.3. Təhsil proqramlarının monitorinqinin faydaları və onların daxili keyfiyyət təminatı sisteminə töhvəsinin qiymətləndirilməsinin aparılması vəziyyəti

Filialda aparılan müsahibə zamanı keyfiyyətin təminatı şöbəsinin müdiri bildirmişdir ki, Təhsil proqramı üzrə kafedralar hesabatlar təqdim edir, tələbələr arasında aparılan sorğular aparılır, açıq dərslər təhlil olunur, üzə çıxarılan nöqsan və çatışmazlıqların aradan qaldırılması istiqamətində müvafiq iş həyata keçirilir.

Təqdim olunmuş sənədlərə (hesabatlar, görülən işlər haqqında tərtib olunan protokollar) baxış zamanı müəyyən olunmuşdur ki, qeyd olunan meyar üzrə sistemli fəaliyyətin təşkili məqsədəuyğundur.

## 10.4. Təhsil proqramlarının illik özünüqiymətləndirmə hesabatlarının hazırlanması vəziyyəti

Sahə baxışı zamanı Təhsil proqramı üzrə aşağıda adları qeyd olunan kafedralar 2018-2023-cü tədris illərinə aid hesabatlar, protokollardan çıxarışlar təqdim etmişlər:

"Dil və ədəbiyyat və onların tədrisi texnologiyası" kafedrasının İbtidai sinif müəllimliyi ixtisası üzrə 2018-2023-cü tədris illərinə aid hesabat;

“Sosial və xüsusi fənlər” kafedrasının İbtidai sinif müəllimliyi ixtisası üzrə 2018-2023-cü tədris illərinə aid hesabat;

“Riyaziyyat və kompüter elmləri” kafedrasının İbtidai sinif müəllimliyi ixtisası üzrə 2018-2023-cü tədris illərinə aid hesabat.

Hesabatlarda Təhsil proqramı üzrə 2018-2019-cu tədris ilinin payız-yaz imtahan sessiyalarının yekunları, 2019-2020-ci tədris ilinin payız-yaz imtahan sessiyalarının yekunları, 2020-2021-ci tədris ilinin payız-yaz imtahan sessiyalarının yekunları, 2021-2022-ci tədris ilinin payız-yaz imtahan sessiyalarının yekunları, 2022-2023-cü tədris ilinin payız-yaz imtahan sessiyalarının yekunları, kafedranın tədris illəri üçün iş planının, sillabusların, tədris illərində kafedra müəllimlərinin açıq dərs cədvəllərinin təsdiqi, yerinə yetiriləcək elmi işlərin vəziyyəti haqqında, kollokviumların təşkili və keçirilməsi, kafedranın müəllimlərinin açıq dərslərinin müzakirəsi, payız və yaz sessiyası üçün imtahan suallarının müzakirəsi və təsdiqi, illər üzrə elmi tədqiqat işlərinin müzakirəsi, payız və yaz imtahan sessiyasına hazırlığın vəziyyəti, imtahan sualları və biletlərinin təsdiqi, payız və yaz imtahan sessiyası müddətində imtahanqabağı məsləhət saatlarının cədvəlinin təsdiqi və gedişinə nəzarət, tələbələrin elmi-tədqiqat işlərinin hazırlıq vəziyyəti,TEC-in konfransı və s. məsələlər müzakirə edilmişdir.

Bununla yanaşı, Tədris və elmi işlər üzrə direktor müavininin imzası ilə İbtidai sinif müəllimliyi ixtisası üzrə Özünütəhlil hesabatı təqdim edilmişdir. Hesabatlar 2018/2019, 2019/2020, 2020/2021, 2021/2022, 2022/2023-cü tədris illərini əhatə etmişdir. Hesabatda Təhsil proqramı üzrə təlim nəticələri, kadr hazırığını həyata keçirən kafedraların dərs yükü, tədris planında ixtisas və peşə fənnlərinin bölgüsü, seçmə fənnlərə ayrılan saatların faizi, təlim nəticələrinin müzakirəsi yer almışdır.

Fakültə dekanının 2018-2023-cü tədris illəri üzrə Özünühəhlil Hesabatı təqdim olunmuşdur.

Lakin hesabat təsviri xarakter daşıyır, fəaliyyətin təşkili haqqındda qeydlər yoxdur. Təhsil proqramı üzrə Özünütəhlil hesabatında kadr hazırlığının zəif və güclü tərəfləri təhlil olunmayıb, müzakirələrın təşkili, müxtəlif struktur nümayəndələrinin, işəgötürənlərin və digər maraqlı tərəflərin iştirakı haqqında məlumat verilməyib, protokollar təqdim olunmayıb.

## 11. TƏHSİL PROQRAMININ DAVAMLI TƏKMİLLƏŞDİRİLMƏSİ VƏ YENİLƏNMƏSİ

### 11.1. Təhsil müəssisəsində tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun yenilənməsi vəziyyəti

Müsahibə zamanı əldə edilən məlumatlara əsasən, filial təhsil proqramlarının yenilənməsində birbaşa iştirakı yoxdur. Əvəzində onların rolu daha çox ADPU-nun keçirdiyi sorğularda maraqlı tərəf olaraq iştirak etməklə məhdudlaşır. Bu, filialın ADPU – nun keçirdiyi qiymətləndirmə proseslərinə müəyyən dərəcədə cəlb olunduğunu göstərir, lakin

təhsil proqramlarının hazırlanmasında filialın müstəqilliyinin məhdud olduğunu da ortaya qoyur.

Bundan əlavə, filial ümumi tədris proqramlarının yenilənməsində iştirak etməsə də, fənn proqramlarının filial daxilində hazırlandığı qeyd edilmişdir. Bu proqramlar ixtisasın təlim nəticələrini və peşə kompetensiyalarını saxlanılmaqla hazırlanır.

Bu məlumat Özünütəhlil hesabatında da öz əksini tapır.

### 11.2. Təhsil proqramının təkmilləşdirilməsi və yenilənməsində nüfuzlu ali təhsil müəssisələrinin proqramlarına istinad vəziyyəti

Müsahibə zamanı vurğulandı ki, təhsil proqramının təkmilləşdirilməsi və yenilənməsində ADPU, BDU və ADA kimi nüfuzlu ali təhsil müəssisələrinin hazırladığı fənn proqramlarına əsaslanılır. Bu məlumat Özünütəhlil hesabatında da əks etdirir. Həm müsahibələrdən, həm də sənədlərdən əlavə məlumat əldə olunmadığından, bu ali təhsil müəssisələrinin təhsil praktikasının və siyasətinin formalaşmasında mərkəzi rol oynadığı aydın olur.

### 11.3 Təhsil proqramının yenilənməsinə maraqlı tərəflərin cəlb olunması vəziyyəti

Müsahibə zamanı filialın təhsil proqramının yenilənməsində maraqlı tərəf kimi iştirak etdiyi qeyd olundu. Bu məsələ özünü təhlil hesabatında da öz əksini tapır. Bu vəziyyət, əlavə məlumatların həm müsahibələrdən, həm də sənədlərdən əldə edilməməsi ilə yanaşı, filialın proqram yenilənməsindəki rolunun və təsirinin mərkəzi əhəmiyyət kəsb etdiyini göstərir.

## 12. TƏHSİL PROQRAMI ÜZRƏ TƏHSİLALANLARA KARYERA XİDMƏTİ VƏ MƏZUNLARLA DAVAMLI ƏLAQƏ SİSTEMİ

### 12.1. Təhsil proqramı üzrə tələbə və məzunlara karyera məsləhət xidmətlərinin göstərilməsi vəziyyəti

Təhsil proqramı üzrə  məzun olmuş tələbələrin data bazası yaradılmışdır.  Kadr və məzunlarla iş şöbəsinin müdiri tərəfindən verilən məlumata əsasən 1992-ci il tarixdən bəri 3169 nəfər məzun olmuşdur. Bütün məzunlarla bağlı məlumat toplanaraq baza yaradılmış və mütəmadi olaraq onlarla əlaqə saxlanılır. Əlaqələr ən çox votsap qrupları üzərindən aparılır. Məzunlarla seminar tipli görüşlər keçirilir. Görüşlər zamanı III, IV kurs tələbələri ilə

MİQ-ə hazırlq, karyera fəaliyyətinin planlaşdırılması kimi mövzular müzakirə olunur. Keçirilən görüşlər haqqında təsdiqedici sənədlər təqdim olunmamışdır.

### 12.2. Təhsil proqramı üzrə məzunların əmək bazarında iştirakının izlənilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti

Kadr və məzunlarla iş şöbəsinin müdiri ilə müsahibədən aydın olmuşdur ki, Təhsil proqramı üzrə məzunların əmək bazarında iştirakının izlənilməsi yalnız onlardan şifahi məlumatların alınması ilə ölçülür. bu haqda Özünütəhlil hesabatında da müvafiq qeyd olunub. MİQ imtahanı vasitəsilə işə qəbul olmuş məzunlarla görüş keçirilir, müvafiq məlumatlar bazaya daxil edilir. İrəliləyişlər isə bazadakı məlumatlara əsasən izlənilir. MİQ imtahanları vasitəsilə işə qəbul olan məzunların xüsusi statistik məlumatlar və bu əsasda digər tələbələr üçün də uğur mexanizminin hazırlanması təcrübəsi mövcud deyil.

### 12.3. Təhsil proqramı üzrə məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi vəziyyəti

Fillialda Keyfiyyətin təminatı şöbəsinin müdiri ilə müsahibə zamanı bildirmişdir kii, Təhsil proqramı üzrə məzunların əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi ilə bağlı keçirilir. Yekun məlumatlar filialda yaradılmış bazaya yönləndirilir. Məzunlarla keçirilən sorğulardan irəli gələn təkliflər əsasında dərslərin interaktiv keçməsi, vizuallığın artırılması, təlim materiallarının elektron formada əlçatanlığının təmin edilməsi, pedaqoji heyəin səriştliliyinin artırılması istiqamətində müvafiq işlər görülür. Sorğular anket (yazılı) və onlayn (google form) formatında aparılmışdır.

Filialının Keyfiyyət Komissiyasının 01 aprel 2024-cü il tarixli iclasında (Protokol № 2) Filialda məktəb direktorları arasında sorğu təşkil olunub. Sorğular tələbələr arasında Maraqlı tərəflərlə keçirilmiş sorğuların təhlili və məmnunluq səviyyəsinin vəziyyəti məsələsi müzakirə edilmişdir. Keyfiyyətin təminatı şöbəsinin müdirinin hesabatına əsasən 63 məktəb direktorunun iştirak etdiyi sorğuda aşağıda qeyd edilən təkliflər verilmişdir:

- İKT bacarıqları üzrə daha çox təlim keçirilsin;
- İKT bacarıqlarının zəif olması.

### 12.4. Təhsil proqramı üzrə məzunlarla davamlı əlaqə sisteminin mövcudluğu vəziyyəti

Proqram üzrə məzunlarla davamlı əlaqə vasitəsi kimi votsap qrupları qeyd olunur. Bu qruplarda məlumatlar paylaşılır və əks-əlaqə yaradılır. Filialın rəsmi internet səhifəsində

| |
|---|
| məzunlarla işlə bağlı ayrılmış bölmə mövcuddur. Səhifənin interaktivliyin təmin olunması məqsədəuyğundur. |

**Komissiyanın meyarlar üzrə təhlili**

| **1. Təhsil proqramı üzrə təhsilalanların qəbulu** | |
|---|---|
| **Güclü tərəflər** | ● Hər il plan yerlərinin sayına müvafiq 100% doluluq qeydə alınır;<br>● Regionun ümumi təhsil müəssisələri ilə əməkdaşlıq edilir;<br>● Regionda müvafiq əmək bazarı mövcuddur; |
| **Zəif tərəflər** | ● Digər bölgələrdən olan tələbələr yataqxana ilə təmin olunmurlar;<br>● Təhsilalanların asudə vaxtlarının daha səmərəli təşkilinə ehtiyac var; |
| **Komissiyanın tövsiyəsi** | ● Tələbə yataqxanalarının inşası üçün müraciətlərin davam etdirilməsi və prosesin izlənilməsi tövsiyə olunur;<br>● Təhsilalanların asudə vaxtlarının səmərəli təşkili istiqamətində görülən işlərin sıxlığının və effektivliyinin artırılması məqsədəuyğundur; |

| **2. Təhsil proqramı üzrə əvvəlki kvalifikasiyaların tanınması** | |
|---|---|
| **Güclü tərəflər** | ● Proses, əsasən, ADPU tərəfindən mərkəzləşmiş şəkildə təşkil olunur;<br>● Təhsilalanlar tərəfindən kreditləri əsasən vaxtında toplanması qaydasındadır;<br>● Diplomların və diploma əlavələrin Filiala qəbulu və məzun olan tələbələrə təqdim olunması zamanı qeydiyyatının aparılması təlimatlara uyğundur; |
| **Zəif tərəflər** | ● Sənədləşmədə qismən çatışmazlıqlar mövcuddur; |

| | |
|---|---|
| **Komissiyanın tövsiyəsi** | ● Tədris müddətində bir təhsil müəssisəsindən digərinə və ya təhsil müəssisəsi daxilində bir təhsil proqramından digərinə köçürüldüyü halda, akademik transkriptlə yanaşı, onun təhsil aldığı müddətdə digər təhsil müəssisəsində və ya digər təhsil proqramında tədris olunmuş fənlərə (toplanılmış kreditlərə) dair arayışın da tələb olunması tövsiyə olunur. |

| **3. Təhsil proqramı üzrə tədrisin təşkili** | |
|---|---|
| **Güclü tərəflər** | ● Təhsil proqramı semestrlər üzrə kreditlərin bölgüsü düzgün təşkil olunmuş, hər semestr üçün 30 kredit ayrılmışdır;<br>● Tədris illəri və semestr üzrə kredit sistemini əks etdirən tədris qrafiki mövcuddur;<br>● Əsas və seçmə fənlərin bölgüsü 120 (ixtisas), 60 (seçmə fənn bloku), 30 (ümumi fənn bloku), 30 (pedaqoji təcrübə) kimi bölünmüşdür;<br>● Təhsil proqramları əsasında tərtib olunmuş tədris planlarında ümumi və ixtisas fənlər bloku arasında balans qorunmuşdur;<br>● Təhsil proqramı üzrə tədris planında semestrlərdə nəzərdə tutulmuş fənlərin sayı və həftəlik dərs yükü tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verir;<br>● Fərdi tədris planı mövcuddur və vəziyyəti qənaətbəxşdir;<br>● Tələbənin illik işçi tədris planı mövcuddur və vəziyyəti qənaətbəxşdir;<br>● Müəllimin illik işçi tədris planı mövcuddur və vəziyyəti qənaətbəxşdir. |
| **Zəif tərəflər** | ● Kredit bölgüsü zamanı fənlər üzrə bölgü əsasən eyni sayda (5 kredit) bölünmüşdür;<br>● Fənn üzrə təlim nəticələri yarımçıq tərtib edilmiş və ya məzmunu tam əhatə etməmişdir;<br>● Sillabuslarda yalnız fənn üzrə təlim nəticələri öz əksini tapmışdır;<br>● Sillabuslarda məsləhət saatları qeyd olunmadığından təhsil proqramı üzrə məsləhətə ehtiyacı olan tələbələrin müəllimlərlə əlaqə saxlaması imkanları məhduddur;<br>● Qiymətləndirmə meyarları 2008-ci il “Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında əsasnamə”-sinə əsasən hazırlanmışdır ki, bu da tələbələrin |

| | |
|---|---|
| | yalnız müvafiq biliklərinin ölçülməsinə xidmət edir və hafizəyə əsaslanır;<br>● Tədris prosesində tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsinə dair nəzarət mexanizmi sistemli deyil, pərakəndə və fraqmental xarakter daşıyır. |
| **Komissiyanın tövsiyəsi** | ● Qiymətləndirmə meyarlarının tələbənin bilikləri ilə yanaşı bacarıqlarının da ölçülənlərin spesifikliyini nəzərə alaraq kredit bölgüsünü fənnin həcminə uyğun müəyyənləşdirilməsi məqsədəuyğundur;<br>● Fənn üzrə təlim nəticələri tərtib edilərkən məzmunun tam əks olunması və təlim nəticələrinin ölçüləbilən olması məqsədəmüvafiqdir;<br>● Sillabuslarda hər bölmə və hər mövzu üzrə təlim nəticələrinin qeyd olunması məqsədəuyğundur;<br>● Xüsusi fənlərdə (texnologiya, təsviri incəsənət, musiqi və s.) praktik məşğələlərin keçirilməsi tələbələrin pedaqoji bacarıqlarının inkişaf etməsi üçün məqsədəuyğundur;<br>● Təhsil proqramı üzrə məsləhətə ehtiyacı olan tələbələrin müəllimlərlə əlaqə saxlamasının əlçatanlığının təmin edilməsi üçün sillabuslarda məsləhət saatlarının qeyd olunması məqsədəmüvafiqdir;<br>● Sərbəst işlərin həyata keçirilməsi daha çox layihə əsaslı və tələbələrin yaradıcı təfəkkürünü inkişaf etdirməyə istiqamətlənmiş olması məqsəduyğundur;<br>● Pedaqoji heyət üçün sistemli şəkildə ixtisas və peşə bacarıqlarının təkmilləşdirilməsinə dair ehtiyac və tələbatların müəyyənləşdirilməsinə dair fəaliyyətin təşkili, növbəti mərhələdə müvafiq təlim və seminarların həyata keçirilmməsinə xidmət etməsi üçün tərtib olunması məqsədəuyğundur;<br>● Tədris prosesində tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsinə dair nəzarət mexanizmi sisteminin yaradılması zəruridir. |

## 4. Təhsil proqramı üzrə tətbiq olunan tədris metodları və üsulları

| | |
|---|---|
| **Güclü tərəflər** | ● Sistematiklik gözlənilməsə də təhsil proqramı üzrə tətbiq olunan tədris metodları və üsullarına dair müxtəlif ixtisasartırma təlimləri təşkil olunur. |
| **Zəif tərəflər** | ● Qiymətləndirmə meyarları əsasən hafizəni ölçür və ballara uyğun tərtib olunmuş meyarlar arasında oxşarlıqlar var;<br>● Müşahidə olunan dərslər əsasən ənənəvi təlim metodlarından istifadə olunmaqla, sual-cavab formatında təşkil olunmuşdur. |
| **Komissiyanın tövsiyəsi** | ● Tələbə nailiyyətlərinin qiymətləndirilməsinə dair yeni, bacarıqların, tənqidi və yaradıcı təfəkkürün dəyərləndirilməsinə xidmət edən meyarlarının hazırlanması məqsədəuyğundur;<br>● Dərs zamanı tələbələrə mövzu ilə əlaqəli problemli situativ vəziyyətlərin yaradılması, problemin həllinə yönəlik ideyaların irəli sürülməsinə təşviq edilə bilmələri üçün yaradıcı, müstəqil düşüncəyə yönəlik tapşırıqların, simulyasiyaların verilməsi məqsədəuyğundur. |

| **5. Təhsil proqramı üzrə istifadə olunan təlim və tədris resursları** | |
|---|---|
| **Güclü tərəflər** | ● Professor-müəllim heyəti və tələbələr üçün onlayn platformalardan istifadə etmək şəraiti yaradılmışdır;<br>● Professor-müəllim heyəti tərəfindən yerləşdirilmiş materialların tələbələr üçün əlçatanlığı təmin olunur;<br>● Auditoriyalar internetlə təmin edilmişdir;<br>● Kitabxananın oxu zalı tələbələrin elektron kitabxana ilə əlaqə yaratmasını təmin etmək üçün vasitələrlə təchiz edilmişdir. |
| **Zəif tərəflər** | ● Kitabxanadakı kitab ehtiyatının daha da təkmilləşdirilməsinə ehtiyac var. |
| **Komissiyanın tövsiyəsi** | ● Bütün auditoriyaların texniki ləvazimatlarla təmin edilməsi məqsəduyğundur;<br>● Kitabxanadakı kitab ehtiyatının zənginləşdirməsi məqsəduyğundur;<br>● Bütün auditoriyanın texniki vasitələrlə tam təchiz edilməsi məqsəduyğundur. |

| 6. Təhsil proqramı üzrə tələb olunan təhsil infrastrukturu və maddi- texniki baza | |
|---|---|
| **Güclü tərəflər** | ● Təhsil proqramı üzrə tədris üçün nəzərdə tutulmuş otaqların dövlət standartlarına uyğunluğu vəziyyəti qaydasındadır<br>● Təhsil proqramı üzrə ədəbiyyat və digər təlim resurslarının mövcudluğu vəziyyəti qənaətbəxşdir.<br>● Təhsil proqramı üzrə təlim və tədris bazasının mövcudluğu vəziyyəti qənaətbəxşdir.<br>● Pedaqoji təcrübə müqavilə əsasında tələblərə uyğun şəkildə təşkil olunur.<br>● Təhsil proqramı üzrə distant təhsil infrastrukturunun əlçatanlılığı təmin olunmuşdur. |
| **Zəif tərəflər** | ● Təhsil proqramı üzrə sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturu mövcud deyil. |
| **Komissiyanın tövsiyəsi** | ● Təhsil proqramı üzrə sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturunun təmin edilməsi məqsəduyğundur. |

| 7. Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi | |
|---|---|
| **Güclü tərəflər** | ● Sistematiklik gözlənilməsə də təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsinə dair müxtəlif ixtisasartırma təlimləri təşkil olunur. |
| **Zəif tərəflər** | ● Qiymətləndirmənin hansı meyarlar əsasında aparılması təhsilalanlara elan olunmur. Qrup işlərinin qiymətləndirilməsi zamanı sözlü meyarlardan istifadə olunmur;<br>● Təhsil proqramı üzrə qiymətləndirmədə müxtəlif formalarından  metod və vasitələrdən istifadə olunmur. |
| **Komissiyanın tövsiyəsi** | ● Müasir təhsil fəlsəfəsinin tələblərinə uyğun olaraq yeni təhsilalanların bacarıqlarını tənqidi və yaradıcı təfəkkürün ölçülməsini təmin edən meyarların hazırlanmasının təmin edilməsin məqsədəmüvafiqdir. Güclü tərəflərin təkmilləşdirilməsi və zəif tərəflərin aradan qaldırılması yalnız yeni meyarların hazırlanmasından sonra mümkündür; |

| | |
|---|---|
| | ● Qiymətləndirmə ilə bağlı təlimlərin keçirilməsi məqsədəuyğundur. |

| **8.Təhsil proqramına cəlb olunan professor-müəllim heyəti** | |
|---|---|
| **Güclü tərəflər** | ● Professor-müəllim heyəti tədris etdikləri proqram və fənnin tələb etdiyi təhsil, bilik və səriştəyə uyğundur;<br>● Akademik heyətin peşəkar inkişafına şərait yaradılır;<br>● Heyətdə motivasiya yüksəkdir;<br>● Kafedralararası əməkdaşlıq mövcuddur;<br>● Əməkdaşların bir-biri ilə münasibətləri təcrübə mübadiləsi və qarşılıqlı hörmət çərçivəsindədir;<br>● Müəllim-tələbə münasibətləri peşəkarlıq müstəvisindədir. |
| **Zəif tərəflər** | ● Akademik heyətdə elmi dərəcəsi olmayan kadrlar üstünlük təşkil edir;<br>● Kənar müəssisələrdən dəvət olunmuş saathesabı müəllimlər var;<br>● Professor-müəllim heyətində gənc kadrlar azlıq təşkil edir;<br>● Tədris prosesində ənənəvi tədris metodlarından istifadə edilir;<br>● İKT savadlılığının artırılmasına ehtiyac var. |
| **Komissiyanın tövsiyəsi** | ● Müəllim heyətinin elmi-tədqiqatlara yönəldilməsinin stimullaşdırılması məqsəduyğundur;<br>● Gənc alimlərin, müasir nəzəri biliyə və praktiki bacarıqlara sahib kadrların Filiala cəlb olunmasına ehtiyac var;<br>● Regiondan olan məzunların təhsillərini davam etdirməyə, onların Filialın gələcək akademik heyəti kimi yetişdirilməsinə dəstək verilməsi stabil kadr potensialı baxımından zəruridir;<br>● Professor-müəllim heyətinin İKT savadlılığının artırılmasına dəstəyin mütəmadi davam etdirilməsi tövsiyə olunur. |

| **9. Təhsil proqramı üzrə tələbəyönümlü tədris** | |
|---|---|
| **Güclü tərəflər** | ● Tələbələrin müstəqil seçim etməsi (seçmə fənləri) prioritetləşdirilib; |

| | |
|---|---|
| | ● Təhsilin keyfiyyətini yaxşılaşdırmaq üçün, müəssisə tələbələrin fikirlərini nəzərə alır (rəy sorğuları əsasında);<br>● Tələbələr tyutorlarla mütəmadi görüşürlər (onlayn və ya üzbəüz). |
| **Zəif tərəflər** | ● Təhsil proqramı üzrə ştatda olan akademik məsləhətçilərin sayı çox olmadığından, seçimdə tələbələrə sərbəstlik verilə bilmir;<br>● Sənədlərin təhlili zamanı (sillabuslar) müəyyən oldu ki, bütün kafedralar məsləhət saatlarını sillabuslarda qeyd etməyib, bu da tələbələr üçün akademik dəstək əldə etməkdə çaşqınlığa və əlçatmazlığa səbəb ola bilər;<br>● Tələbələr arasında tez-tez sorğular keçirilir, bu rəylərin əhəmiyyətli proqram dəyişikliklərinə təsiri tam aydın deyil;<br>● Müəssisədə müxtəlif əlilliyi olan tələbələr üçün infrastruktur və resurslar yetərsizdir.<br>● Təlimdə yeniliklərə baxmayaraq, özünü təhlil hesabatında ənənəvi mühazirə metodları və kollokvium kimi tapşırıqlardan istifadə olunduğu qeyd olunur; |
| **Komissiyanın tövsiyəsi** | ● Məsləhət saatlarının daha əlçətan olması üçün, bütün kafedraların məsləhət saatlarını sillabuslarda aydın şəkildə qeyd etməsini təmin etmək. Kafedraların bu tələblərə əməl etməsini nəzarətdə saxlamaq üçün koordinasiya aparmaq;<br>● Rəy sorğularından daha fəal istifadə etmək üçün, tələbə sorğularının nəticələrini daha şəffaf və effektiv şəkildə proqram dəyişikliklərinə daxil etmək. Sorğu nəticələrini müzakirə etmək üçün müntəzəm iclaslar keçirmək və tələbə rəyini nəzərə alaraq konkret dəyişikliklər etmək;<br>● Əlilliyi olan tələbələr üçün infrastrukturun təkmilləşdirilməsi üçün müəssisədə uyğun infrastruktur və resursları təmin etmək. Əlilliyi olan tələbələr üçün nəzərdə tutulmuş tədris materialları, texnoloji avadanlıqlar və uyğunlaşdırılmış sinif otaqlarının təmin edilməsi;<br>● İnnovativ kurikulumların hazırlanması üçün müəllimlər və ekspertlərlə birgə işçi qruplar yaradaraq yerli əmək bazarının tələblərinə uyğun yeni kurikulumlar hazırlamaq;<br>● Ənənəvi mühazirə metodlarından uzaqlaşaraq daha dinamik və interaktiv tədris metodlarını tətbiq etmək. Tədris prosesində fəal öyrənmə, qrup işi, praktiki təlimlər və texnologiyanın |

| | |
|---|---|
| | istifadəsini təşviq edən seminarlara və təlimlərə müəllimləri cəlb etmək. |

| 10. Təhsil proqramının monitorinqi | |
|---|---|
| **Güclü tərəflər** | ● Təhsil proqramlarının illik özünüqiymətləndirmə hesabatlarının hazırlanması vəziyyətinin qənaətbəxşdir. |
| **Zəif tərəflər** | ● Təhsil proqramlarının monitorinqi strategiyası və fəaliyyət planı aşkarlanmamışdır;<br>● Fənn üzrə təlim nəticələri qeyd olunsa da, bölmə və mövzular üzrə konkret təlim nəticələri təqdim olunmamışdır;<br>● Təhsil proqramlarının monitorinqinin faydaları və onların daxili keyfiyyət təminatı sisteminə töhvəsinin qiymətləndirilməsinə dair görülmüş işlər sistemli xarakter daşımır. |
| **Komissiyanın tövsiyəsi** | ● Təhsil proqramlarının monitorinqi strategiyası və fəaliyyət planının hazırlanması və onun sistemli icra edilməsi məqsəduyğundur;<br>● Hər bir fəndən bütün bölmələr və onlara müvafiq mövzular üzrə təlim nəticələrinin tərtib olunması məqsədəuyğundur;<br>● Təhsil proqramlarının monitorinqinin daha sistemli şəkildə təşkil etmək məqsədəmüvafiqdir. |

| 11. Təhsil proqramının davamlı təkmilləşdirilməsi və yenilənməsi | |
|---|---|
| **Güclü tərəflər** | ● Müəssisə ADPU-nun təhsil proqramlarının yenilənməsi ilə bağlı keçirdiyi sorğularda iştirak edir.<br>● Müəssisə kurikulumunu ADPU, BDU və ADA kimi nüfuzlu universitetlərin proqramlarına əsasən müqayisə edir. |
| **Zəif tərəflər** | ● Müəssisə təhsil proqramlarının yenilənməsində birbaşa iştirak etmir, yalnız sorğular vasitəsilə iştirak edir.<br>● Daxili innovasiyanın olmaması və xarici proqramlara həddindən artıq asılılıq, müəssisənin tələbə kütləsinin |

| | |
|---|---|
| | ehtiyaclarına uyğunlaşdırılmış unikal və özəl proqramlar inkişaf etdirmək qabiliyyətini zəiflədə bilər; |
| **Komissiyanın tövsiyəsi** | ● Müəssisənin müəllim və administrasiya heyətinin təhsil proqramlarının yenilənməsi və təkmilləşdirilməsində daha birbaşa iştirakını təşviq etmək;<br>● Müəssisənin öz daxili ehtiyaclarına uyğun olan innovativ kurikulumun inkişafı üçün xüsusi komitələr yaratmaq;<br>● Proqramların cari və gələcək yerli əmək bazarının tələblərinə uyğun olmasını təmin etmək üçün geniş əmək bazarı analizləri aparmaq;<br>● Proqramları, yerli tələbatda olan bacarıq və bilikləri daxil etməklə uyğunlaşdırmaq;<br>● Nüfuzlu universitetlərə istinad etmək güclü tərəf olsa da, müəssisənin daxili imkanlarını istifadə edərək, yerli imkanları əks etdirən unikal proqramların inkişaf etdirilməsini təşviq etmək; |

| **12.Təhsil proqramı üzrə təhsilalanlara karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi** | |
|---|---|
| **Güclü tərəflər** | ● Təhsil proqramı üzrə məzun olmuş tələbələrin data bazası yaradılmışdır. |
| **Zəif tərəflər** | ● Təhsil proqramı üzrə məzunların əmək bazarında iştirakının izlənilməsi mexanizminin yetərli deyil;<br>● Təhsil proqramı üzrə məzunlarla davamlı əlaqə sistemi kimi yalnız sosial şəbəkədən istifadə olunur;<br>● MİQ imtahanları vasitəsilə iş yerlərinə qəbul olan məzunların xüsusi statistik məlumatların hazırlanması və bu əsasda digər tələbələr üçün də uğur mexanizminin hazırlanması mövcud deyil. |
| **Komissiyanın tövsiyəsi** | ● Məzunların əmək bazarında izlənilməsi üçün xüsusi mexanizmin yaradılması məqsədəuyğundur;<br>● Məzunlarla müntəzəm əlaqənin saxlanılmasını müxtəlif sosial şəbəkələrlə yanaşı, seminar, vebinar, təlim və konfrans tipli |

| | |
|---|---|
| | görüş və müzakirələrdə iştirakının təmin olunması uyğunlaşdırılması məqsədəuyğundur;<br>● Məzunların MİQ vasitəsilə qəbulunun statistik nəticələrinin hazırlanması və naliyyət əldə edilməsi üçün nəticələrə əsasən mexanizim hazırlanması və tətbiq edilməsi məqsəduyğundur. |

## Komissiyanın dövlət standartlarının yerinə yetirilməsinə dair qeydləri

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialında "İbtidai sinif müəllimliyi" proqramının fəaliyyətinin təhlili və qiymətləndirilməsi (güclü tərəflər, zəif tərəflər və komissiyanın tövsiyəsi olmaqla) Komissiya tərəfindən proqram akkreditasiya meyarlarına uyğun olaraq müvafiq 12 meyar üzrə aparılmışdır. Qiymətləndirmənin yekunu olaraq proqramın fəaliyyəti ilə bağlı müşahidə edilmiş çatışmazlıqların aradan qaldırılması üçün Komissiya tərəfindən hər bir istiqamət üzrə tövsiyələr təqdim edilmişdir (ümumilikdə 39 tövsiyə).

Yuxarıda qeyd olunanları nəzərə alaraq, növbəti proqram akkreditasiya qiymətləndirilməsinədək aşağıda qeyd olunan tədbirlərin Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialı tərəfindən həyata keçirilməsi məqsədəuyğun hesab edilir:

- Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına nəzarəti təmin etmək məqsədilə Akkreditasiya Şurasının qərarından sonrakı 3 (üç) ay müddətində proqram üzrə müvafiq fəaliyyət planının hazırlanaraq təsdiq olunması (TKTA ilə razılaşdırılmaqla);

- Agentlik tərəfindən fəaliyyət planının icrasına nəzarətin təmin edilməsi məqsədilə fəaliyyət planında qeyd edilmiş işlərin icrasına dair illik hesabatların TKTA-ya təqdim edilməsi.

## Təhsil proqramının akkreditasiyası üzrə Komissiyanın yekun rəyi

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialının "İbtidai sinif müəllimliyi" ixtisası üzrə proqram akkreditasiyası Komissiyasının yekun rəyi aşağıdakı kimidir:

- Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialının "İbtidai sinif müəllimliyi" ixtisası üzrə proqram akkreditasiyası qiymətləndirilməsinin yekunu olaraq, bu proqram üzrə Akkreditasiya Meyarlarının tələblərinin üçdə biri üzrə "qismən uyğun" qiymətləndirilməsi səbəbilə bu proqramın müvafiq meyarlar üzrə fəaliyyətlərinin qəbul olunmuş dövlət təhsil standartlarına və digər normativ hüquqi aktların tələblərinə "qismən uyğundur" hesab edilməsi;

- Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialının İbtidai sinif müəllimliyi" ixtisası üzrə təhsil proqramının qüvvədə olan akkreditasiya şəhadətnaməsinin müddətinin növbəti 2 (iki) il üçün uzadılması və təhsil proqramının 1 (bir) ildən sonra təkrar akkreditasiya edilməsi məqsədəuyğun hesab edilir.